Xalqın qəzeti!
# Xalq qəzeti
№ 10 (30414) 18 yanvar 2024-cü il, cümə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

## Fransanın Cənubi Qafqaz maraqlarının 3 aspekti



Səhifə ⇨ 3

# Aİ-nin Ermənistan missiyası Cənubi Qafqazda pozucu elementdir

### Şərti sərhədə 1500-cü patrulunu göndərməsini bayram edən EUMA kimi kimdən qoruyur?






**Nikol Paşinyan hökumətinin təşəbbüsü ilə Ermənistan–Azərbaycan şərti sərhədinə yerləşdirilmiş Avropa İttifaqının Mülki Missiyasından (EUMA) yeni xəbər var. Missiyanın "X" platformasındakı hesabında dünən edilən paylaşımda bildirilib ki, EUMA yanvarın 17-də sərhədyanı əraziyə 1500-cü patrulunu göndərib. Qeyd olunub ki, missiyaya yerdəki vəziyyəti müşahidə etmək və bunun əsasında hesabat hazırlamaq təlimatı verilib. EUMA-nın Ermənistanın Qafan, Gorus, Cermuk, Yexeqnadzor, Martuni və İcevan şəhərlərində yerləşən 6 əməliyyat bazasından patrul xidməti həyata keçirdiyi vurğulanıb.**

Qeyd edək ki, EUMA 2023-cü il fevralın 20-də işə başlayıb. Missiya "mülki" adlandırılsa da, əslində ona yarımhərbiləşdirilmiş missiya demək daha doğru olardı. Onun tərkibində Qərbin 15 ölkəsindən, əsasən Almaniya və Fransadan olan keçmiş polis zabitlərinin çoxluq təşkil etməsi belə düşünməyə əsas verir. Missiyanın hansı məqsədlərə xidmət etdiyi indiyədək müəmmalı qalır. Qurumun fəaliyyətindən Azərbaycanla yanaşı, regionun digər ölkələri – Rusiya və İran da narazıdır. Hər iki ölkə Aİ missiyasının özlərinin əleyhinə fəaliyyət göstərdiyini, müşahidə həyata keçirdiyini və kəşfiyyat məlumatları topladığını iddia edir.

(ardı 4-cü səhifədə)

# Paşinyan, AİI və "Dünyanın kəsişməsi"

### İrəvanın anti–Rusiya ritorikasını Avrasiya İqtisadi İttifaqına daşımaq cəhdləri

**Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqına (AİI) rotasiya qaydasındakı sədrliyi öz üzərinə götürməsi ilə əlaqədar olaraq quruma üzv dövlətlərin başçılarına müraciət ünvanlayıb. Əlbəttə, o, müraciətini həm də təşkilatın fəaliyyətdə olan sədri statusunda edib.**




Bəli, Ermənistan bir il müddətinə AİI-yə sədrliyi həyata keçirəcək. Əslində, Rusiya ilə artan ziddiyyətləri fonunda İrəvanın Moskvanın egidası altında olan quruma rəhbərliyi bir yana, həmin qurumun üzvü kimi fəaliyyətinin davamına razılıq verməsi maraq doğurmaqdadır. Axı, baş nazir Nikol Paşinyan administrasiyası Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə yollarını, faktiki olaraq, ayırmış durumdadır. Ona görə də Ermənistan parlamentinin spikeri Alen Simonyanın ötən ilin noyabrında AİI müstəvisində pozitiv mesajlar verməsi, istər-istəməz, təəccüb doğurmuşdu. Ancaq elə o zaman da məlum idi ki, bu mesajlar heç də elə-belədən səslənmir.

Qeyd edək ki, hazırda Paşinyan və komandası, demək olar, əllərinə düşən hər fürsətdə KTMT-nin fəaliyyətini heçə endirməkdə, onu əhəmiyyətsiz təsisat qismində göstərməkdədirlər. Bu tendensiyasının əsası 2022-ci ildə qoyulmuşdu. Həmin il Ermənistan rotasiya qaydasında təşkilata sədrliyi həyata keçirdi. Və KTMT-nin 2022-ci ilin noyabrında İrəvanda gerçəkləşmiş sammiti sədrliyin isterik anlarına şahidlik baxımından yadda qaldı.

*(ardı 3-cü səhifədə)*

# MSK sədri "Seçki-2024" Media Mərkəzində



Səhifə ⇨ 8

# "Le Point"in "Qaçılmaz müharibə"si

**Sən demə, Azərbaycan Ermənistanın cənub sərhədlərinə hücuma hazırlaşırmış. Bu sərsəm iddianı bir neçə gün əvvəl fransız nəşri olan "Le Point" jurnalı gündəmə gətirib. Özü də Ermənistan–Azərbaycan sərhədindəki vəziyyətlə bağlı "Qaçılmaz müharibə" başlıqlı reportajında.**

Le Point

İlk növbədə, məqalənin sərlövhəsinə və Azərbaycanın hücumu məntiqinə diqqət yetirək. Məlum olduğu kimi, bu kimi iddialar son günlər Ermənistan cəmiyyətində geniş şəkildə yayımlanır. Ölkə iqtidarı isə sanki onların tirajlanmasında katalizator funksiyasını yerinə yetirir. Görəsən, məqsəd sadə erməniləri qorxu və təlaş içində saxlamaqdırmı? Məlumdur ki, 44 günlük müharibədən sonra ermənilərdə qorxu hissi onsuz da var. Bəs, nə üçün, belə demək mümkünsə, qorxunun damarına basılır?

*(ardı 4-cü səhifədə)*

# Azərbaycanın uğurları Davos zirvəsində




Səhifə ⇨ 10

# "Yaşıl" hidrogenə "yaşıl işıq!"




Səhifə ⇨ 9

# Ölkəmizin Olimpiya marafonu

Səhifə ⇨ 10

# Bu gün investisiya – sabah yüksəliş, bolluq, rahatlıq!



Səhifə ⇨ 9

# S.İ.Seyidovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Səməd İsmayıl oğlu Seyidov "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 17 yanvar 2024-cü il**

# Ceyhun Bayramov Uqandada

**Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Uqanda Respublikasına işgüzar səfərə yola düşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun Qoşulmama Hərəkatının Dövlət və Hökumət başçılarının 19-cu Zirvə Toplantısında iştirakı, yüksək səviyyəli yerli və xarici rəsmilərlə ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

# Mikayıl Cabbarovun "TikTok"un vitse-prezidenti ilə görüşü



**Azərbaycan "TikTok" şirkəti ilə əməkdaşlıq imkanlarını müzakirə edib. Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.**

Nazir qeyd edib ki, Davos İqtisadi Forumu çərçivəsində "TikTok" şirkətinin vitse-prezidenti Helena Lerş (Helena Lersch) ilə görüşüb: "Görüşdə Azərbaycanda startap ekosisteminin inkişafı istiqamətində görülən işlər, "TikTok Startap Akademiyası"nın fəaliyyəti, sosial platformaların biznesin potensialının təqdim edilməsi üçün əhəmiyyəti və əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb".

**XQ**

# Azərbaycan–Türkiyə hərbi-texniki əməkdaşlığı



**Müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov Azərbaycanda işgüzar səfərdə olan Türkiyə milli müdafiə nazirinin müavini Celal Sami Tüfekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüş zamanı Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Tərəflər hərbi-texniki sahədə maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

**XQ**

# Avstriya COP29-un Azərbaycanda keçirilməsini alqışlayır

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiyadakı diplomatik korpusun diayeni qismində Avstraliyanın Rusiya Federasiyasına yeni təyin olunmuş səfiri Con Uilyam Giering ilə görüşüb.**



Görüş zamanı bir çox məsələlər, o cümlədən Azərbaycan və Ermənistan arasında mövcud münasibətlər müzakirə olunub. Səfir Girinq başa çatmış Ermənistan–Azərbaycan münaqişəsindəki vəziyyətlə maraqlanıb və Avstraliyanın hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini qeyd edib. O, ölkəmizi 2024-cü ildə COP29-a evsahibliyi etmək üçün Bakı şəhərinin seçilməsi münasibətilə təbrik edib.

Sonda səfir Con Uilyam Girinqə Heydər Əliyev Fondu tərəfindən nəşr edilmiş "Qarabağ: işğaldan əvvəl və sonra" adlı kitab hədiyyə edilib.

**XQ**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış namizədlərin

### S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı və atasının adı | Kim tərəfindən irəli sürülmüşdür | Fəaliyyət növü |
|---|---|---|---|
| 1 | Əliyev İlham Heydər oğlu | Yeni Azərbaycan Partiyası (YAP) | Azərbaycan Respublikasının Prezidenti |
| 2 | Oruc Zahid Məhərrəm oğlu | Öz təşəbbüsü ilə | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 3 | Nurullayev Razi Qulaməli oğlu | Milli Cəbhə Partiyası (MCP) | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 4 | Həsənquliyev Qüdrət Müzəffər oğlu | Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP) | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 5 | Mustafa Fazil Qəzənfər oğlu | Böyük Quruluş Partiyası (BQP) | Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| 6 | Musayev Elşad Nəbi oğlu | Böyük Azərbaycan Partiyası (BAP) | Böyük Azərbaycan Partiyasının sədri |
| 7 | Əliyev Fuad Ağasi oğlu | Öz təşəbbüsü ilə | "Vətəndaş Hüquqlarının Müdafiəsinə Dəstək" ictimai birliyinin sədri |

# MDB Müşahidə Missiyasının nümayəndə heyəti MSK-da

**Yanvarın 17-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 7-də keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin (MDB) Baş katibinin birinci müavini Leonid Anfimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, Məzahir Pənahov qonaqları salamlayaraq görüşdən məmnunluğunu ifadə edib. Seçkilərdə aşkarlığın və şəffaflığın təmin olunmasında müşahidəçilik institutunun mühüm rol oynadığını vurğulayan MSK sədri rəhbərlik etdiyi ali seçki qurumunun beynəlxalq təşkilatlarla əməkdaşlığa daim xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırıb. O, beynəlxalq müşahidəçilərin Azərbaycanda keçirilən seçkilərə böyük maraq göstərməsini yüksək qiymətləndirib.

Səmimi görüşə görə minnətdarlığını bildirən MDB Baş katibinin birinci müavini Leonid Anfimov prezident seçkiləri ilə əlaqədar həyata keçirilmiş layihələr və görülmüş işlər barədə məlumat verilməsini xahiş edib.

M.Pənahov qarşıdan gələn seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi istiqamətində atılmış addımlar, reallaşdırılmış genişmiqyaslı layihələrdən danışıb, onları maraqlandıran suallan cavablandırıb.

Görüş çərçivəsində, həmçinin qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib və fikir mübadiləsi aparılıb.

**XQ**

# Beynəlxalq müşahidəçilər Naxçıvanda

**Beynəlxalq müşahidəçilər Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən seçki dairələrində olub, ayrı-ayrı məntəqələrdə seçkilərə hazırlığın gedişi ilə maraqlanıblar.**



ATƏT-in Demokratik Qurumlar və İnsan Haqları üzrə Təşkilatının Naxçıvandakı uzunmüddətli müşahidəçisi Kristoper Barber jurnalistlərə müsahibəsində bildirib ki, muxtar respublikaya növbədənkənar Prezident seçkilərini müşahidə etmək üçün gəlib:

"Mənimlə birlikdə İsveçrədən olan həmkarım Martin Mayinedir burdadır. Biz fevralın 15-dək burada olacağıq. Seçki və seçkidən sonrakı müddəti müşahidə edəcəyik. Qeyd edim ki, bizə seçki ərəfəsində qısamüddətli müşahidəçilər də qoşulacaq.

Əsas məqsədimiz şəxsən nəyi müşahidə ediriksə, onları dəyərləndirməkdən ibarətdir. Qərarlarımız tamamilə obyektiv və qərərsiz olacaq. Əsas komanda olaraq Bakıdan gəlmişik və hazırda gedən proseslər barədə ayın sonunadək hesabat verəcəyik.

Müxtəlif yerlərə baş çəkib müşahidələr aparırıq. Bura siyasi partiyalar, qeyri-hökumət təşkilatları, seçicilər, dairələr və məntəqələr daxildir. İndiyədək hazırlıq prosesini müşahidə eləmişik. Hazırda məntəqələrdə hazırlıq işləri aparılır və lazımi avadanlıqlarla təmin edilir".

**XQ**

# Paytaxt prokurorluğunun hesabatı

**Yanvarın 17-də Bakı Şəhər Prokurorluğu və Bakı şəhərinin rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə 2023-cü ilin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.**



Baş prokuror Kamran Əliyev bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinin böyük təntənə ilə qeyd edildiyi 2023-cü ildə ölkəmizin həyatında bir sıra mühüm hadisələr baş verib, bunlardan ən önəmlisi Azərbaycanın bütün ölkə ərazisi üzrə suverenliyinin bərpa edilməsidir.

Bakı şəhər prokuroru Elşən Abbasov hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, Baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, 2023-cü il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları tərəfindən 15 min 759 cinayət hadisəsi qeydə alınıb. Onların 87,4 faizinin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində 2023-cü ildə törədilən 51 qəsdən adam öldürmə cinayətindən 50-nin və 23 qəsdən adam- öldürməyə cəhd cinayətlərinin hamısının, həmçinin ötən illərdən bağlı qalan 1 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilib.

Qeyd edilib ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 279 cinayət işinin ibtidai istintaqı tamamlanıb, onlardan 197 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilib. Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 7 milyon 151 min 170 manat məbləğində maddi ziyanın 5 milyon 141 min 511 manatının və ya 71,9 faizinin ödənilməsi təmin olunub.

Baş prokuror Kamran Əliyev şəhər prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar verib.

**XQ**

# Fransanın Cənubi Qafqaz maraqlarının 3 aspekti

**I hissə**

***"Dünyanın bir sıra yerlərində meymunlar, Avropada isə fransızlar dolaşırlar ki, demək olar eyni şeydir"***

**Artur ŞOPENHAUER**

***"Ey, Fransa! Nə üçün sən öz dostlarını rədd edirsən?"***

**U.ŞEKSPİR**

Ekspertlər Fransanın Cənubi Qafqazdakı fəaliyyətini çox fərqli mövqelərdən izah edirlər. Onların böyük əksəriyyətini təşkil edən bir qrup belə qənaətə gəlir ki, ölkə nə beynəlxalq hüquq qaydalarına, nə də ədalət prinsipinə əməl edir. Fransa iqtidarı, faktiki olaraq, Cənubi Qafqazı iki geosiyasi düşərgəyə ayırır: birincisi, frankofoniya düşərgəsi, ikincisi isə, qeyri-frankofoniya düşərgəsi. Yəni, rəsmi Paris bu bölgü əsasında region dövlətlərinə münasibətini formalaşdırır. Frankfoniya (ona başqa sözlə, "fransız dünyası" da deyə bilərik) idealına uyğun gəlməyən və müstəqil fəaliyyət göstərən dövlətlərə qarşı açıq və ya gizli haqsız, ədalətsiz mübarizə aparılır, müxtəlif xarakterli təxribatlar törədilir.

Ekspertlərin digər qrupu hesab edir ki, Fransa özünün maraqlarını təmin etmək üçün məhz bu cür davranmalıdır. Onların fikrincə, rəsmi Paris regionda geosiyasi nüfuzunu yüksətlmək hüququna malikdir. Başqa bir qrupa aid ekspertlər isə Fransanın regiondakı faliyyətinə bütövlükdə Qərbin, konkret olaraq, NATO və Avropa İttifaqının siyasətinin tərkib hissəsi kimi yanaşırlar. Bu məntiqə söykənsək, rəsmi Parisin hər bir hərəkətinin yekun olaraq Qərbə xidmət amalına kökləndiyi təəssüratı yaranır. Mövcud xüsusda Amerika, Böyük Britaniya və Almaniyanın da Cənubi Qafqaz siyasəti ilə Parisin siyasətini sinxronlaşdırmaq cəhdləri özünü doğruldur. Deməli, Azərbaycana qarşı münasibət baxımından gah Fransanın, gah ABŞ-ın, gah da Almaniyanın sanki növbə ilə diplomatik və digər fəallıq göstərməsini vahid ssenarinin fraqmentləri olaraq görmək mümkündür.

Ekspertlər Fransanın səngidiyi müddətdə ABŞ və ya Almaniyanın daha da fəallaşmasının ümumi mənzərəni dəyişmədiyinə diqqət çəkirlər. Çünki rəsmi Parisin dediklərini bir qədər fərqli forma və kontekstdə Vaşinqton və ya Berlin ifadə edir. Müəyyən müddətdən sonra isə Fransa heç nə olmamış kimi yenidən Cənubi Qafqazda qeyri-konstruktiv və geosiyasi aspektdə bölücü siyasətini davam etdirir. Məsələn, rəsmi İrəvan Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə bağlı vasitəçi olmadan müzakirə aparmağa müsbət münasibətini bildirən kimi Qərbdən hədələr gəldi. Vaşinqton və Avropa paytaxtları Azərbaycana qarşı yeni iftiralara başladılar. Uydurma ittihamlarla gündəmə gəldilər. O cümlədən, rəsmi Paris də daxil olmaqla, erməni havadarları "Azərbaycan Ermənistanın ərazi bütövlünü pozarsa..." kimi cəfəngiyatla başlayan böhtanı səsləndirməyə başladılar. Ölkəmizin rəhbərliyi ən yüksək səviyyədə dəfələrlə bəyan etmişdir ki, Bakıya müharibə lazım deyil və Azərbaycanın kimsənin ərazisində gözü yoxdur. Bundan heç söhbət belə gedə bilməz. Çünki Azərbaycan öz torpaqlarını hərbi yolla azad etmək mərhələsini keçib və nəticə də göstərir ki, Ermənistana qarşə təcavüz reallaşdırmayıb. Ermənistan isə hələ də bir neçə Azərbaycan kəndini işğalda saxlayır. Onların azad olunması isə Azərbaycanın təbii hüququdur.

Onlar da çox güclüdürlər. E.Makron buna görə susmur və bəzən çox şıltaqlıq edir. Bunları irəlidə analiz edəcəyik. Hələlik Fransanın Türkiyə siyasəti prizmasında Cənubi Qafqazdakı qərəzliliyinin üzərində dayanaq.

Fransa Türkiyənin Aralıq dənizi, Afrika, Cənubi Qafqaz və Mərkəzi Asiya siyasətini həzm edə bilmədiyini dəfələrlə nümayiş etdirib. Bu qərəz Liviya və Cənubi Qafqazda özünü daha kəskin göstərir. Liviya sahillərində fransızların hərbi həmləsini türk ordusu məharətlə dayandırıb. Məlumdur ki, Fransa geri çəkilməsəydi, böyük itkilər verəcəkdi. Paralel olaraq, Ankara diplomatiyanı işə salaraq – NATO vasitəsi ilə Makrona "nələrisə anlatmağı" bacarıb. Bundan sonra, Fransa sakitləşib və Aralıq dənizi ilə Afrikanın şimalında türk təsirinə qarşı dura bilməyəcəyini anlayıb.



Cənubi Qafqazın daxili geosiyasi dinamikasına rəsmi Parisin müdaxilə cəhdlərinin mahiyyəti göstərir ki, ekspertlərin ikinci və üçüncü qrupu adlandırdığımız hissəsi məsələyə obyektiv və reallığa uyğun yanaşmırlar. Yəni, Fransa nə özünün haqlı geosiyasi maraqlarına iddia edir, nə də bütövlükdə NATO və ya Aİ-nin maraqlarının tərkib hissəsi kimi davranır.

Rəsmi Parisin Cənubi Qafqazdakı "geosiyasi qərəzi" onun daha geniş məkanda Türkiyə, İran və Rusiya siyasətinin məzmunundan da asılıdır. Fransa daha çox Türkiyənin getdikcə dünya gücünə çevrilmək istiqamətində əldə etdiyi uğurlara tam qısqanclıqla və NATO müttəfiqliyinə yaraşmayan formada mane olmağa çalışır. Hətta, bir sıra müşahidəçilər Makron–Ərdoğan mübarizəsinin mövcudluğunu vurğulayır, habelə Makronun böyük Ərdoğanın əlini cırmaqlamağa çalışan "kiçik adam" obrazını formalaşdırırlar. Əslində, təbii ki, elə deyildir. Fransanın davranışlarının pərdəarxası məqamları üzərində düşünərkən belə qənaət hasil olur ki, rəsmi Parisin qol-qanadı dərinlərə və geniş məkanlara gedib çıxır. Bundan başqa, onun gizli söykənəcəkləri mövcuddur ki,

Tərəflərin digər mübarizə məkanı Afrikadır. Orada siyasi-diplomatik savaş hələ də davam edir. Fransa diplomatiyası bir-birinin ardınca həm Afrikada geosiyasi nüfuzunu itirir, həm də hərbi mövcudluğunu minimuma endirmək məcburiyyətində qalır. Afrikalılar Fransanın qitədən getməsini açıq tələb edirlər. Məsələn, Somali, Niger və digər ölkələr, müxtəlif Afrika təşkilatları bunu bəyan edirlər. Deməli, Afrikada da Fransa Türkiyə və Rusiyaya qarşı dayana bilmir, geri çəkilir.

Bəlkə də elə bunlara görədir ki, Fransa, obrazlı desək, dişlərini Cənubi Qafqaza qıcıyır. Rəsmi Paris birbaşa Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesində üstünlük əldə etməyə çalışır. Lakin Azərbaycan Fransanın vasitəçi ola bilmədiyini dəfələrlə bəyan edib və Parisin fəaliyyəti bu istiqamətdə tam bloklanıb. Bunun fonunda Fransa Ermənistanı silahlandırır və onu müxtəlif siyasi təxribatlara sürükləyir. Rəsmi Paris, hətta, erməni bacılarına hədə-qorxu da gəlir. Belə hal hansısa Ermənistan rəsmisinin Bakı ilə birbaşa danışıqlardan bəhs etməsindən sonra yaşanır.

Bunlar onu göstərir ki, Fransanın Türkiyə siyasətinin məzmunu, məqsədi və siyasi mahiyyəti ilə Cənubi Qafqazda ermənipərəst mövqe tutması arasında əlaqə mövcuddur. Bu, daha geniş miqyasda sistemli geosiyasi, siyasi və diplomatik fəaliyyətin fraqmenti təsiri bağışlayır. Eyni qənaətə Parisin Rusiya və İran siyasətinin fonunda da gələ bilərik. Əgər Fransanın məqsədi Cənubi Qafqazdan Rusiyanı sıxışdırmaqla bağlıdırsa, bunu Azərbaycana qarşı ədalətsiz mövqe tutmaqla və təcavüzkar, qeyri-konstruktiv Ermənistanı müdafiə etməklə reallaşdıra bilməz. Çünki hər bir dövlətin öz maraqları olduğu kimi, tarixi ədalət anlayışı da vardır.

Bundan başqa, Fransa o qədər güclü deyil ki, haqlı olan Azərbaycan-Türkiyə tandeminə qarşı dura bilsin. Real proseslər də bunu sübuta yetirir. Deməli, rəsmi Paris, faktiki olaraq, geosiyasi aspektdəki "atdığı güllə" boşa keçir. Əlbəttə, məsələnin başqa tərəfi də var.

## "Ölmüş imperiya"nın Şeyx Nəsrullahı

Allah Mirzə Fətəli Axundzadəyə və Cəlil Məmmədquluzadəyə rəhmət eləsin! Məstəli Şah və Şeyx Nəsrullah fransız deyildilər, lakin məhz Parisin partladılması ilə ölülərin dirilməsi arasında daxili bağlantı, yalançı "möcüzə" yaratmaqdır. Etiraf edək ki, Dərviş Məstəli Şahla Şeyx Nəsrullahın "hekayəti"nin indiki geosiyasətə heç bir aidiyyəti yoxdur. Ancaq süjet baxımından Makron–Paşinyan ortaq fəaliyyətinə bənzəyir. Fərq ondadır ki, indi fransızın fırıldaqçı tərəfdaşı müsəlman deyil.

E.Makron da ölmüş imperiyanın Şeyx Nəsrullahı olmaq eşqinə düşüb. O, Fransa imperiyasını Afrikada və Cənubi Qafqazda diriltməyə girişib. Bu baxımdan Şeyx Nəsrullah xırda işlərlə məşğul olurmuş! Real olanı odur ki, Afrikadakı hər yetən Makronun dərsini verir və ona anladır ki, ölmüş imperiyanı diriltmək müasir dövrün xarakterinə, mahiyyətinə, funksional özəlliklərinə uyğun deyil. Həm də bu, köhnə "mahnı"dır. Qloballaşmadan danışanlar onun düşməni olan imperialist düşüncəni bərpa edə bilməzlər. Bu, Yer kürəsində partlayışa səbəb ola bilər.

Deməli, Fransa öz xəbis imperiya niyyətlərini bərpa etməklə regionlarda geosiyasi nüfuzunu artırmaq fikrinə düşübsə, uçuruma gedir. Rəsmi Paris hər şeydən öncə anlamalıdır ki, Cənubi Qafqazda özünü imperiya kimi aparmağa cəhd edən az olmayıb. Elə indi də Amerika, Rusiya, İran, Çin imperializmi özünü göstərməyə çalışır. Lakin onların həç biri həm ayrılıqda, həm də bir-biri ilə mübarizədə buna nail ola bilmir. Demək olar ki, artıq Fransadan başqa, regionda "nüfuzlu imperialist" olmaq istəyən qalmayıb. Mümkündür ki, onlar siyasətlərini maskalı və gizli hala salıblar. Ancaq o da görünür ki, Azərbaycanın 44 günlük savaş nəticəsində regional miqyasda yaratdığı postmüharibə mərhələsinin ümumi mahiyyəti imperializmin hansısa formada keçərli ola biləcəyinin qarşısını alır. Bu baxımdan Bakı həm də "böyük qardaş" olmaq istəyənlərə açıq mesaj verir: Artıq bu da olmayacaq! Yəni, Azərbaycanla ancaq bərabərhüquqlu tərəfdaş kimi yola davam etmək mümkündür. Və şərti birbaşa ölkəmiz qoyur, kənar paytaxtlar yox!

Belə görünür ki, Fransa ya bunu anlamaq istəmir, ya da anladığını büruzə verməyə iradəsi və mənəvi gücü çatmır. Hər bir halda ölkənin bir sıra davranışları onun imperialist ambisiyalarından xəbər verir. Məsələn, Ermənistana "Bastion"lar satır. Avropa İttifaqının mülki missiyası adı altında hərbçilərini Ermənistana göndərir. Bakını güc tətbiqi ilə hədələyir. Paralel olaraq, açıq şəkildə bəyan edir ki, Rusiyanı regiondan uzaqlaşdırmaq lazımdır.

## Fransanın öz iqtisadi və mədəni maraqlarına zərbəsi

Fransanın niyyətlərlə Cənubi Qafqazda hansısa geosiyasi nüfuz sahibi ola bilməsi ehtimalı sıfırdır. Hətta, imperiya yolu Parisin təbii iqtisadi və mədəni maraqlarına da ciddi ziyan verir. Bu maraqların Cənubi Qafqaz istiqamətində çox olduğunu təcrübə göstərir. "Əsrin müqaviləsi"ndə fransız şirktətləri heç də sonuncu yerdə qərarlaşmamışdılar. "Total" kifayət qədər sanballı paya sahib idi. Enerjinin hər bir növü üzrə Fransanın maraqlarına Azərbaycan müsbət qarşılıq verə bilərdi.

Bunlardan başqa, Fransa inkişaf etmiş ölkə kimi informasiya texnologiyaları, yeni kommunikasiya vasitələri və kosmosda əməkdaşlıqla bağlı Azərbaycanla birgə çox işlər görə bilərdi. Təsadüfi deyildir ki, Azərbaycanın bir neçə kosmik peyki Fransada hazırlanıb. Habelə, Fransanın inkişaf etmiş mülki aviasiya sənayesi sferası ilə əməkdaşlıq da mümkün idi. Üstəlik, iqtisadi sahə ilə yanaşı, Fransa rəsmiləri mədəniyyət aspektində də Azərbaycanla dialoq və əməkdaşlığa "fransız" qaldılar. Avropa ölkəsində mədəniyyət abidəsinə qarşı olan hörmətsizlik hər şeyi deyir. Bu "baqaj"la Paris Cənubi Qafqazda nə dərəcədə uğurlu ola bilər? Bəlkə məsələnin gizli, görünməyən tərəfləri var? Hansı "yeraltı təşkilat" buna qarışmış ola bilər?

Suallar konspirasiyaya işarə aspektində (latınca conspiratio – "gizli sövdələşmə", "müəyyən fəaliyyəti gizli saxlama", "gizlilik prinsipi", "qeyri-leqallıq") qoyulmur. Lakin burada konspirativ element ola bilər. Konkret olaraq, qeyri-leqal hansısa təşkilatın fəaliyyətini gizli saxlaması üçün konspiroloji metodlardan istifadəsi mümkündür. Sual ritorik də deyildir və hansısa sui-qəsd nəzəriyyəsi naminə verilmir. Bir sıra düşündürücü faktlar mövcuddur. Onları isə ayrıca təhlil etmək gərəkdir.

**(ardı var)**

**Füzuli QURBANOV,**
**XQ-nin analitiki,**
**fəlsəfə elmləri doktoru**

# Paşinyan, AİI və "Dünyanın kəsişməsi"

**(əvvəli 1-ci səhifədə)**

Baş nazir N.Paşinyan sammitdəki çıxışda KTMT-ni Ermənistanın anti-Azərbaycan ritorikasının alətinə çevirməyə çalışdı. O, qurumun 2022-ci ilin sentyabrında Azərbaycan–Ermənistan sərhədində yaşanmış gərginliyə siyasi qiymət verməsinə cəhd göstərdi.

Nikol Rusiya Prezidenti Vladimir Putinin də qatıldığı toplantıda son dərəcə həyasızcasına istədi ki, KTMT Azərbaycanı işğalçı kimi göstərən yekun qərar çıxarsın. Ancaq niyyəti reallaşmadı. Üstəlik, Belarus Prezidenti Aleksandr Lukaşenko və Qazaxıstanın dövlət başçısı Kasım-Jomart Tokayev Paşinyanın bu isteriyasına özlərinə xas üslubda cavab verdilər. Qazaxıstan lideri Azərbaycan-Ermənistan sərhədlərinin dəqiqləşmədiyini bildirərək, hazırkı durumun KTMT-nin ona qarışma səlahiyyətindən uzaqlığını əsaslandırdı. Lukaşenko isə daha sərt şəkildə dillənərək erməni baş nazirini sammitə toplaşanları uşaq yerinə qoymamağa çağırdı. Yəni, bu o demək idi ki, rəsmi İrəvanın KTMT platformasında oynamaq istədiyi oyun mənasızdır.

***

Bəli, hazırda N.Paşinyanın AİI-yə üzv dövlətlərin başçılarına müraciəti də KTMT müstəvisindəki mənasızlığın transfer cəhdinin ilk siqnalıdır. Tam aydın olur ki, rəsmi İrəvan bu qurumu özünün avantürist niyyətlərində, bir növ, plasdarm kimi istifadəni düşünür, eynilə KTMT xüsusundakı xəttin davamını rəhbər seçir. Deməli, Ermənistan AİI-yə sədrlikdən də Rusiyanı və onun hakim rol oynadığı təşkilatı nüfuzdan salmaq naminə bəhrələnəcək. Buna qətiyyən şübhə yoxdur. Elə Paşinyanın müraciətində üzərində dayandığı başlıca məsələ də belə fikir yürütməyə əsas verməkdədir.

***

Ermənistanın baş naziri AİI ilə bağlı başlıca perspektiv fəaliyyət istiqamətlərini açıqladığı müraciətində "Dünyanın kəsişməsi" ideyasını ortaya atır. O ideya




ki, erməni avantürizminin müasir konseptini təşkil edir. Məlum olduğu kimi, rəsmi İrəvanın "Dünyanın kəsişməsi", "Dünya kəsişməsi" və ya "Sülhün yol kəsişməsi" kimi təqdim etdiyi bu layihə Azərbaycanın "Zəngəzur dəhlizi" ideyasına qarşıdır.

"Zəngəzur dəhlizi"nin məğzini ölkəmizin digər ərazilərinin Naxçıvanla birləşdirilməsi təşkil edir. Nəzərə alaq ki, məsələ Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatından irəli gəlməkdədir. Ermənistanın 44 günlük müharibədəki məğlubiyyətinin, kapitulyasiyasının nəticəsi olaraq meydana çıxmış üçtərəfli bəyanatın doqquzuncu bəndində çox aydın şəkildə vurğulanıb ki, İrəvan Naxçıvana yol üçün təminat verməli, həmin yoldakı təhlükəsizliyi isə Rusiya Federal Təhlükəsizlik Xidməti qorumalıdır. Ermənistan üçün hazırda bu müddəa yoxmuş kimidir.

Azərbaycanın mövqeyi budur ki, Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslanmalıdır. Yəni, həmin yolda sərhəd və gömrük nəzarəti olmamalıdır. Ümumən, "Zəngəzur dəhlizi" Şərqdən Xəzər dənizi və Rusiya ərazisi ilə Qərbə doğru Türkiyə vasitəsilə daşımaların regional episentrini təşkil etməlidir. "Dünyanın kəsişməsi" isə Ermənistanı həm qeyd edilən, həm də İran vasitəsilə Qara dənizə, oradan da Avropaya daşımaların mərkəzinə çevirmək məntiqinə əsaslanmaqdadır. Bu, ölkəmiz üçün tam yolverilməzdir.

Birincisi, 44 günlük müharibə olub. Yəni, Ermənistan öz xoşluğu ilə regiondakı düzənin formalaşmasına töhfə verməyib. Deməli, hələlik, ölkə, ilk növbədə, inamı itirmiş durumdadır. Ona heç cür böyük layihədə təhlükəsizliyin qorunması xüsusunda etimad etmək olmaz. Ermənistana etimad həm də ona görə göstərilməməlidir ki, ölkə üzərinə düşən öhdəliyi yerinə yetirmir, yəni Paşinyan öz imzasından imtina edir. Buna görə Azərbaycan Naxçıvana yolun İran ərazisindən keçməsi təklifini irəli sürür. Belə yanaşma Ermənistanın təcrididir. Daha doğrusu, təcridin davamıdır və haqlıdır.

Onu da nəzərə alaq ki, hazırkı durumda "Dünyanın kəsişməsi" nəinki anti-Azərbaycan, eyni zamanda, anti-Rusiya mahiyyəti daşıyan layihədir. Mövcud təşəbbüsün Moskvanın Cənubi Qafqaz regionundan tamamilə sıxışdırılması üçün həm siyasi, həm də iqtisadi müqavimət yükünü üzərinə götürməsinə hesablanıb. Buna görə də erməni rəsmilər, xüsusən, N.Paşinyan məsələni bütün beynəlxalq platformalarda fəal şəkildə təbliğ etməklə məşğuldur. İndi bu təbliğat AİI müstəvisinə keçməkdədir.

Təsəvvür edin ki, loru dildə desək, Ermənistan iqtidarı Rusiya bazarına öz məhsulunu çıxarmağı və bunun müqabilində bazar sahibinə heç bir ödənc etməməyi düşünür. Ancaq demək olarmı ki, Paşinyan və tərəfdarları planlarının gerçəkləşəcəyinə inanırlar. Onlar həddən artıq həyasız ola bilərlər, amma sadəlövh deyillər. Əlbəttə, hazırkı durumda sadəlövlükdən uzaqlıq başlıca parametr deyil. Vacib məsələ həyasızlıqdır. Əslində, baş nazir Nikol Paşinyanın Ali Avrasiya İqtisadi Şurasının ötən il dekabr ayının sonunda Sankt-Peterburqda keçirilmiş iclasındakı çıxışı da tipik erməni xislətinin nümayişi idi. Onun sözlərindən belə çıxmışdı ki, iqtisadi təşkilat olan AİI heç bir halda siyasi məqsədlər üçün alətə çevrilməməlidir. Ancaq biz görürük ki, hazırda Paşinyan, ilk növbədə, bu fikrindən yayınır. Hər halda, "Dünyanın kəsişməsi"nin tam bir siyasi layihə olduğu heç kəsə sirr deyil.

Bəli, Paşinyan və komandası inanmır ki, "Dünyanın kəsişməsi"ni AİI müstəvisinə gətirmək fayda verəcək. Ancaq bu istiqamətdə fəaliyyət İrəvan üçün vacibdir. Necə deyərlər, tutar qatıq, tutmaz ayran. Ayran hər zaman var. Məsələ burasındadır ki, hazırda Ermənistan, obrazlı ifadə etsək, AİI daxilinə qoyulmuş saat mexanizmli bombadır. Vaxtın tamamında partlamalıdır. Necə ki, KTMT müstəvisində bir ilin tamamında partladı və hazırda həmin partlayışın "qəlpələri" ətrafa səpələnməkdədir. Yəni, Ermənistan KTMT-nin fəaliyyətsizliyi məsələsini qabartmaqla, anti-Rusiya siyasəti həyata keçirməkdədir. Bu siyasət avantürist notlara köklənməklə, Moskvanın hakim rol oynadığı təşkilatların işinin iflic hala salınmasına, bu qurumların heç bir əhəmiyyətinin olmadığı görüntüsünün formalaşdırılmasına yönəlib.

N.Paşinyan məqsədini reallaşdırmaq üçün gəlişigözəl fikirlər də səsləndirməkdədir. Məsələn, 2045-ci ilə qədərki dövr üçün AİI çərçivəsində iqtisadi proseslərin gələcək inkişafına dair qəbul edilmiş bəyannamənin əhəmiyyətini vurğulayan erməni baş nazir həmin sənədin qurumun inkişafı ilə əlaqədar prioritet istiqamətlər doğurduğunu deyir. O bildirir ki, xarici bazarlara çıxmaqdan ötrü AİI-nin coğrafi mövqeyinin tranzit potensialından və imkanlarından maksimum istifadə lazımdır. Nikol, həmçinin, Avrasiyanın nəqliyyat infrastrukturunun inkişafı və malların üçüncü ölkələrə ixracı, beynəlxalq təşkilatlar və beynəlxalq inkişaf institutları ilə əlaqələrin potensialını maksimum dərəcədə artırmaq yönümlü əlavə səylərin göstərilməsi üzərində dayanır. Hazırda bu kimi "həlli vacib məsələlərin" reallaşmadığını deyən Paşinyan mətləbə gəlir: "Bu kontekstdə Ermənistan Respublikası tərəfindən təklif olunan perspektivli "Dünyanın kəsişməsi" layihəsinin uğurla həyata keçirilməsi Avrasiya beynəlxalq nəqliyyat marşrutları üzrə tranzit daşımaların təmin edilməsi naminə nəzərdə tutulan məqsədlərə çatmaqda mühüm rol oynayacaqdır. "Dünyanın kəsişməsi" regionumuzun ölkələrini avtomobil, dəmir yolu, kabel, qaz kəmərləri və elektrik xətləri ilə birləşdirə bilər".

Göründüyü kimi, Ermənistanın baş naziri AİI müstəvisində öz başını aşan məsələlərdən danışır. Nikol onu da çox yaxşı bilir ki, təşkilata üzv dövlətlərin hər birinin Azərbaycanla əlaqələri kifayət qədər yüksək səviyyədədir. Bütün bu bildirdiklərimizin fonunda belə qənaətə gəlmək mümkündür ki, erməni hökumət rəhbərinin quruma üzv dövlətlərin başçılarına müraciəti siyasi təxribatdan başqa bir şey deyil. Böyük ehtimalla, Paşinyan gələcəkdə mövcud istiqamətdəki təxribatlarının mövzu dairəsini və məzmununu xeyli zənginləşdirəcək. Əlbəttə, buna zənginləşdirmək demək mümkündürsə.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Aİ-nin Ermənistan missiyası Cənubi Qafqazda pozucu elementdir



(əvvəli 1-ci səhifədə)

Avropa İttifaqı Şurasının bəyanatında isə deyilir ki, bu, yalnız Ermənistan ərazisində fəaliyyət göstərən və icra funksiyası olmayan neytral missiyadır.

Ümumiyyətlə, EUMA-nın Ermənistanda daimi əsaslarla yerləşdirilməsinin özünün maraqlı tarixçəsi var. 2022-ci il oktyabrın 6-da Çexiyanın paytaxtı Praqada Avropa Siyasi Birliyinin ilk Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında görüş keçirilmişdi. Görüşdən sonra verilən bəyanatda bildirilirdi ki, Ermənistan Azərbaycanla sərhəddə Aİ-nin mülki missiyasının göndərilməsinə razılıq verib. Azərbaycan da bu missiya ilə əməkdaşlığa razılaşıb. Bəyanatda o da qeyd olunurdu ki, Aİ-nin missiyası oktyabr ayında gələcək və maksimum iki ay müddətində işləyəcək. Onun məqsədi etimad yaratmaq və hesabatları vasitəsilə sərhəd komissiyalarının işinə töhfə vermək olacaq. Əldə olunmuş razılaşmaya əsasən, vəziyyətin monitorinqi, təhlili və yerlərdə vəziyyətlə bağlı hesabatların təqdim edilməsi məqsədilə oktyabrın 20-də şərti sərhədin Ermənistan tərəfi boyunca Aİ-nin mülki missiyası yerləşdirildi.

Ancaq sonradan, yəni dekabrın 20-də rəsmi İrəvan missiyanın müddətinin qeyri-müəyyən müddətədək uzadılmasına dair birtərəfli qaydada qərar qəbul etdi. Beləliklə, EUMA 2023-cü ilin yanvarında sonradan uzadılma imkanı ilə 2 illik ilkin mandata malik olaraq Ermənistanda yerləşdi. Missiyada, təxminən, 103 Aİ əməkdaşının olacağı gözlənilirdi. 2023-cü il dekabrın 11-də isə Aİ Ermənistanda yerləşdirilən əməkdaşlarının sayının 209-a çatdırılacağını təsdiqlədi. EUMA-nın əsas vəzifəsi Ermənistanın Azərbaycanla sərhədinin bütün uzunluğunda, o cümlədən Naxçıvan eksklavı boyunca sərhəd patrullarının aparılmasıdır.

Bununla bağlı Prezident İlham Əliyev hələ 2023-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində fikirlərini açıqlamışdı. Dövlətimizin başçısı demişdi: “Praqa görüşünün bir məqamı da var idi. O, ümumi kontekstin bir qədər kənarında qaldı. Bu da Ermənistan ərazisinə, bizim sərhədyanı bölgələrə Avropa müşahidəçi missiyasının göndərilməsi idi. Bu məsələ də çox geniş müzakirə edilmişdir. Təkliflərdən biri o idi ki, o cümlədən Azərbaycan tərəfinə də bu missiya göndərilsin. Biz buna etiraz etdik. Ancaq Ermənistana bu missiyanın göndərilməsinə razılıq verdik. O vaxt da danışıldı və orada müzakirə olundu ki, bu missiya qısamüddətli, 40 nəfərdən ibarət olacaq və cəmi iki ay çəkəcək. Mən də bununla razılaşdım. Ancaq sonra nədənsə bu danışıq, yəni, bu razılaşma pozuldu. Bu, əlbəttə ki, çox məyusedici bir məqamdır. Çünki biz ciddi adamlarıq. Burada ciddi söhbətlər gedir. Biz nəyisə razılaşdırırıqsa, hətta şifahi olsa belə, buna əməl etməliyik. Necə ola bilər? Bir müddət sonra Avropa İttifaqının yüksək vəzifəli şəxsi demişdi ki, missiya uzadılacaq. Ondan sonra Fransanın xarici işlər naziri demişdi ki, biz missiyanı uzadacağıq. Əlbəttə, biz dərhal hərəkətə keçdik və izahat tələb etdik. Bu, nə məsələdir? Siz bunu necə uzadacaqsınız? Siz axı bu missiyanın göndərilməsini bizimlə razılaşdırmısınız. Nə üçün? Çünki bu, bizim sərhədimizin yanında olacaq. Necə ola bilər ki, bizimlə bu razılaşdırılmasın?

Dekabrın 19-da bu missiyanın müddəti başa çatmalı idi, siz də getməli idiniz öz yerlərinizə. Yəni, bu, bizi aldatmaq deməkdir. Biz bundan sonra sizinlə necə işləyək, necə müzakirə aparaq? Əgər siz bizi burada iki ay keçmədən belə xırda məsələdə, – yəni, əslində, o qədər də ciddi məsələ deyil, – aldadırsınız. Ondan sonra nə etdilər? Ondan sonra rəsmən dekabrın 19-da missiyanın fəaliyyətini dayandırdılar. Amma dekabrın 20-də yeni missiya göndərdilər. Bu da sadəcə olaraq, manipulyasiyadır. İndi yeni missiyanın nümayəndələri Ermənistandadır, orada yüksək vəzifəli şəxslərlə görüşlər keçirirlər. Bizdə olan məlumata görə, fevral ayında böyük heyətlə yenə də oraya göndəriləcəklər. Yenə də bizimlə razılaşdırılmadan”.

Missiyası Ermənistan və Azərbaycan arasında etimad yaradılması və sərhəd komissiyalarının işinə töhfə vermək olan EUMA-nın hansısa müsbət nəticə əldə etdiyini söyləmək çətindir. Əksinə, onun fəaliyyəti iki ölkə arasında etimadın yaradılmasına zərbə vurub. Prezident İlham Əliyevin qiymətləndirməsi də bu yöndədir.

Ümumiyyətlə, Qərbin əsas məqsədi Ermənistan və Azərbaycan arasında etimadın yaradılması və davamlı sülhün əldə edilməsi deyil. Qərbin heç zaman belə bir istəyi olmayıb. Qərb dünyasında Ermənistanı üç tərəfdən müsəlman ölkəsi ilə əhatə olunmuş Şərqdə “xristianlığın qalası” hesab edirlər. Onlar qeyd edirlər ki, Ermənistan dünyada xristianlığı dövlət dini kimi ilk dəfə (301-ci ildə) qəbul etmiş ölkədir və onu hərtərəfli dəstəkləmək lazımdır. Qərb hər zaman bu yanaşmanı əsas götürüb. Bundan əlavə, Ermənistanı Rusiyadan qoparmaq xətti də Qərbin əsas niyyətlərindən biridir. Bu yaxınlarda Rusiyanın federal dövlət xəbər agentliyində məlumatlı mənbəyə istinadən yerləşdirilmiş bir informasiyada da qeyd olunurdu ki, Almaniya Ermənistanı Qərbin anti-Rusiya siyasətinə sürükləməyə çalışır. Agentlik bildirirdi ki, Almaniya Rusiya sərhədçilərinin Ermənistandan tezliklə çıxarılmasında maraqlıdır. Berlin bu və digər anti-Rusiya addımlarının müqabilində İrəvana maliyyə yardımı təklif edir. Zənnimizcə, Ermənistanda yerləşdirilmiş Aİ missiyasına da bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır.

Onu da qeyd edək ki, qərbpərəst Paşinyan iqtidarı ona belə təkliflərin edilməsinə əsaslar verir. Azərbaycanın sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Rusiyaya açıq demarşlar edən, oktyabrın 13-də MDB Dövlət Başçıları Şurasının iclasına, noyabrın 23-də isə KTMT-nin Minskdə keçirilən sammitlərinə qatılmaqdan imtina edən Paşinyan ilin sonunda sanki fikrini dəyişərək dekabrın 25-də Avrasiya İqtisadi İttifaqının (Aİİ) Sankt-Peterburqda keçirilən iclasına, dekabrın 26-da isə həmin şəhərdə MDB dövlət başçılarının qeyri-rəsmi görüşünə qatıldı. Ancaq Paşinyan elə Aİİ-nin sammitində bəyan etdi ki, təşkilat iqtisadi birlikdir, onun siyasi və geosiyasi gündəmi olmamalıdır: “Biz bunu belə dərk etməyə və bu kontekstdə Avrasiya inteqrasiyasını siyasiləşdirmək cəhdlərinin qarşısını almağa çalışaraq, iqtisadi çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə davam edirik. Aİİ və onun iqtisadi prinsipləri siyasi ambisiyalarla əlaqələndirilməməlidir. Ticarət və inteqrasiyanın əsas azadlıqları siyasi mülahizələrə görə məhdudlaşdırıla bilməz, bu, mütləq birləşmənin fundamental prinsiplərinin korroziyasına gətirib çıxaracaq”.

2024-cü il yanvarın 1-dən Aİİ orqanlarına sədrliyi Rusiyadan təhvil alan Ermənistanın baş naziri yanvarın 16-da yenidən təşkilatın depolitizasiyası tezisini səsləndirib. Paşinyan Ermənistanın sədrliyi ilə əlaqədar Aİİ ölkələrinin liderlərinə müraciətində qarşılıqlı iqtisadi fəaliyyətin prinsip və alətlərinə yenidən baxılmasının vacibliyini vurğulayıb. Qeyd edib ki, Aİİ-nin 10 illik fəaliyyətinin yekunları ilə əməkdaşlığın bütün sahələrində mühüm nəticələr əldə edilib: “Eyni zamanda, bir sıra strateji əhəmiyyət kəsb edən məsələlər qalır ki, onların həlli olmadan səmərəli vahid iqtisadi zonanın formalaşdırılmasını başa çatdırmaq mümkün deyil. Aİİ üzv dövlətləri yalnız səyləri birləşdirməklə, gələcək nəsillər üçün siyasi və geosiyasi dəyişikliklərlə bağlı olmayan daha sabit iqtisadi əməkdaşlıq modeli yarada biləcəklər”.

Göründüyü kimi, Ermənistanın MDB-də, Aİİ-də, KTMT-də üzvlüyü davam etsə də, onun əsas istiqaməti Qərbə doğrudur. Paşinyanın ölkəsinin sədrlik etdiyi təşkilatın siyasi gündəminin olmamasına açıq formada çalışması bunun göstəricisidir. Bu sürüşkən mövqe isə Qərbin rəsmi İrəvana müxtəlif təkliflər etməsinə rəvac verir. Aİ-nin Ermənistanda yerləşən yarımhərbiləşmiş missiyası da məhz həmin təkliflərdən birinin nəticəsi kimi meydana çıxıb və Cənubi Qafqazda pozucu elementə çevrilib.

**Səxavət HƏMİD**
**XQ**

### Ekspert rəyi

**Yeganə HACIYEVA, politoloq**



EUMA-nın fəaliyyəti və onun ətrafında baş verənlər Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Komissarlığı tərəfindən Azərbaycana qarşı aparılan aqressiv diplomatiyanın bir elementidir. Məsələ ondadır ki, Aİ komissarı Azərbaycan ərazilərinin işğal altında qaldığı 30 il ərzində bir dəfə də olsun sərhədlərin toxunulmazlığına dair fikir səsləndirməyib. Amma hazırkı dövrdə Aİ, daha doğrusu Fransa regiona yerləşmək üçün sərhəddə gərginliyin olduğu görüntüsünü yaratmağa çalışır. Bu, uzunmüddətli plandır. Xatırladım ki, bütün bunların fonunda Senat Fransa hökumətini “Laçın dəhlizinin statusu”nun bərpa olunması üçün Ermənistana qoşun yeritməyə, ölkəmizə qarşı sanksiyaların tətbiqinə çağırmışdı. Yəni, bütün bunlara eyni prizmadan yanaşmaq lazımdır. Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Komissarlığının sözçüsü görüntü yaradır, Fransa Senatı ordunun yerləşməsinə çağırır, daxildə isə bizi Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko zəif salmaq istəyir. Yəni, ölkəmizə qarşı ümumi oyun gedir. EUMA da həmin oyunun tərkib hissəsidir.

# Avroparlament nədən qorxdu?

## Daxildə çıxılmaz dilemma, kənarda sərt gerçəklik

**Mütəxəssislərin fikrincə, qorxu hissinin canlının müxtəlif orqanlarına, xüsusilə sinir sisteminə mənfi təsiri nəticəsində yüngül və ya ağır fəsadlar ortaya çıxa bilər. Amma təbiətdə olduğu kimi, cəmiyyətdə, eləcə də siyasətdə bundan daha önəmli faktor bu hissi yaradan səbəblərdir. Yəni, bu xəstəliyə mübtəla olan subyekt/obyekt yanlış və zərərli hərəkətlərə yol verə, yaxud düzgün qərarlar qəbul etməkdə çətinlik çəkə bilər.**



Bu xəstəlik konkret fərdlərlə yanaşı, bütöv bir toplumun, hətta beynəlxalq yarlıq altında gizlənən “təsisatların” davranışında özünü açıq şəkildə göstərmək ehtimalını yaradır. Eynən Azərbaycanda növbədənkənar prezident seçkilərini müşahidə edəcək missiyanı ölkəmizə göndərməkdən çəkinən Avropa Parlamentinin (AP) başbilənlərinin nümayiş etdirdiyi tərəddüdlü mövqeyi kimi. Artıq rəsmən təsdiqlənmiş məlumatdır: AP 7 fevral növbədənkənar prezident seçkilərinin monitorinqini apamaqdan ötrü Azərbaycana müşahidəçi missiyasını göndərməyəcək. Bu, Strasburqdan gözlənilən qərar idi. Çünki Azərbaycan XİN, eləcə də Milli Məclis tərəfindən Prezident seçkisini müşahidəyə dəvət olunan beynəlxalq təşkilatların siyahısında bu qurumun adı yoxdur. Aydın məsələdir ki, diplomatik qaydalara əsasən, hələ dəvətə qədər tərəflər arasında konfedensial fikir mübadiləsi mərhələsi olur. Rəsmi dəvət məhz həmin müzakirənin yekunundan asılı olaraq göndərilir, ya da göndərilmir. Deməli, 7 fevral seçkisini müşahidə missiyasından imtina qərarının AP rəhbərliyinin özünün qəbul etdiyinə şübhə yeri qalmır.

*

Ümumavropa qanunverici orqanının açıqladığı bəyanatda deyilir ki, AP Azərbaycanda Prezident seçkisini müşahidə etməyəcək və buna müvafiq olaraq, qurum nə seçki prosesini, nə də onun nəticəsini şərh edəcək. Bu açıqlamasına əlavə olaraq AP xüsusi olaraq altını cızır ki, “Avropa Parlamentinin heç bir üzvü onun adından seçki prosesini müşahidə və şərh vermək səlahiyyətinə malik deyil”.

Yəqin AP-ın Strasburqdakı mənzil-qərargahında əyləşənlər belə bir düşünülmüş sual qarşısında qalıblar: Fevralın 7-də Azərbaycanda azad və demokratik, beynəlxalq hüquq və normalara tam riayət olunmaqla keçiriləcəyinə şübhə yeri qalmayan Prezident seçkilərinin səhərisi qurumun müşahidə missiyası hansı rəyi açıqlayacaq? Seçkilərin “pis” keçirildiyini söyləməyə əllərində əsasları olmayacaq, “yaxşı” keçirildiyini isə etiraf etməyə qorxacaqlar. Amma bütün hallarda reallıq avroparlamentarilərin “üzünə durub”: budəfəki Prezident seçkiləri, işğaldan azad olunmuş torpaqları daxil olmaqla, Azərbaycanın bütün ərazisində keçiriləcək. Seçkinin hüquqi coğrafiyası təkcə Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Laçın və Kəlbəcəri deyil, o cümlədən Şuşanı, Xankəndini, Xocavəndi, Ağdərəni, Xocalını da əhatə edəcək. Sadaladığımız inzibati ərazi vahidləri Azərbaycanın beynəlxalq hüquq tərəfindən tanınmış sərhədləri ilə təsbit olunub. Görünür, avroparlamentariləri bu seçkilərdə “qorxudan” əsas amil prosesin təşkil edildiyi və onların müşahidə edəcəkləri bu ərazilərin, faktiki olaraq, tanınması anlamına gəlməsidir. Axı bu etiraf “Dağlıq Qarabağ ermənilərinin hüquqları” uğrunda mübarizə aparan, “onların haqqını tapdayan” Bakıya qarşı bəyanatlar qəbul edən AP-nin erməniprəst missiyası ilə daban-dabana zidd olardı. Erməni lobbisinin pulları ilə hərəkətə gətirilən və okeanın o tayından verilən siyasi sifarişləri yerinə yetirmək üzrə “ixtisaslaşmış” avroparlamentarilər üçün sponsorları qarşısında verəcəkləri hesabat daha önəmlidir. Avropanın Azərbaycanafob, Türkiyəfob qüvvələrinin cəmləşdiyi bu qurumun 2023-cü ilin sentyabrında Bakının həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra qaladıqları “siyasi-ideoloji tonqalın” külü hələ soyumayıb.

*

Əlbəttə, formal olaraq Avropa Parlamenti 7 fevral seçkilərinin monitorinqindən imtina etməkdə sərbəstdir. Bu, nə hüquqi cəhətdən mübahisələndirilə biləcək presedentdir, nə də cavab notasının, yaxud bəyanatın veriləcəyi məqamdır. Fəqət 2023-cü ilin payızında Azərbaycana qarşı erməniprəst kağız parçalarını qəbul edən avroparlamentarilər elə o zaman ölkəmizin bütövləşmiş suveren ərazisində keçirilən seçkilərin monitorinqini aparmaq haqqını itirib. Burada söhbət, sadəcə, siyasi məsuliyyətdən gedə bilər. Bəs, “köhnə qitə”də bu məsuliyəti onun boynuna yükləyəcək qurum varmı? Yoxdur!

Yazımızın əvvəlinə qayıdaraq bir daha qeyd edək ki, Avropa Parlamenti hazırda öz içindəki qorxunun əsirinə çevrilib. Ağır, bəlkə də sağalmaz xəstəlikdir. Diaqnozu bizə də məlumdur, əlacını isə özləri tapsınlar.

**İmran BƏDİRXANLI**
**XQ**

# “Le Point”in “Qaçılmaz müharibə”si

## Yaxud Fransanın Ermənistanda yaratmaq istədiyi vahimə

(əvvəli 1-ci səhifədə)

**Birincisi,** Ermənistan hakimiyyəti avantürizmindən əl çəkmir. Nəzərə alaq ki, avantürizmin xarici qaynaqları da var. Bu baxımdan “fəaliyyətinə” diqqət yetirilməli ölkə isə məhz Fransadır. İrəvan Parisin direktivlərini yerinə yetirməklə, qeyri-konstruktiv mövqe tutmaqda, Azərbaycanla sülh prosesini əngəlləyir və mövcud istiqamətdəki barışmazlıq xətti yeni müharibə perspektivi doğurur. Deməli, indiki halda erməni cəmiyyətini Azərbaycanın hücumu ilə qorxutmaq lazımdır. Lazımdır ki, qorxu müqavimət hissinə çevrilsin.

**İkincisi,** Azərbaycanın Ermənistana hücum məntiqi, bir qayda olaraq, Azərbaycan tərəfindən səslənmiş bəyanatlardan sonra dövriyyəyə girir. Bakı reallıqları vurğulayır, prinsipial və haqlı baxışlarını ortaya qoyur, obyektiv tələblərini səsləndirir, İrəvanda isə bütün bunların işğal xəbərdarlığı olduğu deyilir. Təbii ki, məsələnin belə yolverilməz qoyuluşu aşkar manipulyasiyadır, həqiqətlərin təhrifinə yönəlmiş siyasi təxribatdır.

Bəli, Fransanın “Le Point” jurnalı da aşkar təxribat əməli ilə məşğuldur. Təxribatın hədəfləri barədə söz açmazdan əvvəl bildirək ki, sözügedən nəşrin məqaləsində Qarabağın Azərbaycan Ordusu tərəfindən, guya, işğal olunduğu bildirilir. Əlbəttə, məsələnin qoyuluşunun beynəlxalq hüquq prinsiplərinə tam zidd olduğunu vurğulamaq niyyətindən uzağıq. Çünki fransız siyasi dairələrinin, həmçinin, media orqanlarının təməl prinsiplərə əhəmiyyətsiz və etinasız yanaşacaq qədər azğın mahiyyətə kökləndikləri aşkardır. Eləcə də yüz mindən çox Qarabağ ermənisinin öz doğma torpağını məcburən tərk etməsi kimi cəfəng məntiqdən də təəccüblənmirik. Başlıca məqam primitivlikdədir.

Təsəvvür edin ki, o boyda ölkənin tanınmış nəşri bir keçmiş müharibə veteranının fikirlərinə nəzərən Azərbaycanın Ermənistanın üzərinə hücuma keçəcəyinə dair fikirlər tirajlayır. Hələ digər müharibə veteranı da “danışdırılır” və Gevorq adlı həmin şəxs, öz aləmində, vətənpərvərlik duyğularına güc verir: “Qorxu ölüb, Ermənistan isə diridir”.

Göründüyü kimi, fransız nəşri, Fransa hökuməti kimi illüziya yaratmaqla məşğuldur. Aşkar görünür ki, Parisin siyasi dairələrinin tapşırığını yerinə yetirən jurnal qızışdırıcı mövqe tutmaqdadır. Bu mövqenin daha bir təzahürü “Le Point”un məqaləsində yer almış və Ermənistandakı Qarabağ erməniləri ilə söhbəti əks etdirən məqamlardan aydın görünür. Diqqət yetirək, yazıda bildirilir: “Bu adamların (Qarabağdan köçkün düşmüş ermənilərin - red) qəzəb və müqavimətlərini görmək üçün erməni dilini bilmək lazım deyil”.

Bəli, “Le Point” təkcə erməniprəstlik etmir. Jurnal, eyni zamanda, Fransanın hakimiyyət dairələrinin anti-Azərbaycan sifarişlərini yerinə yetirir. Bəs hazırkı dövr üçün bu sifarişlərin məqsədi nədən ibarətdir? Əlbəttə, ilk məqsəd ölkəmizi gözdən salmaqdır. Gözdən salmaq və Azərbaycanın qəddar obrazını formalaşdırmaq, dünyada ölkəmizə münasibətdə antipatiya yaratmaq.

Digər tərəfdən, Fransanın Ermənistanı silahlandırdığı məlumdur. Hazırda Paris bu əməlini, bir növ, legitimləşdirməyi düşünür. Yəni, göstərmək istəyir ki, İrəvana silah-sursat yardımı ermənilərin Bakının zülmündən xilası üçündür. Azərbaycanın Ermənistana hücum edəcəyinə dair fikrin qabardılmasındakı başlıca niyyət də məhz budur.

Deməli, Fransa Ermənistanı gücləndirməyə davam edəcək. “Le Point” jurnalının saxta sentimentallığa söykənmiş məqaləsindəki ayrı-ayrı fikirlər də deyimin təsdiqidir. Əlbəttə, strateji hədəf Ermənistanın Azərbaycana qarşı hücuma keçəcək qədər güclənməsinə nail olmaqdır. Bir sözlə, Cənubi Qafqazda sülh mühitinin qərarlaşmasına yol verməmək. Nəzərə alaq ki, regionda sülh Fransının qlobal maraqlarını təmin edilməmiş saxlayan perspektiv vəd edir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# ƏDALƏT, HÜQUQ, DEMOKRATİYA



HƏSƏNQULİYEV QÜDRƏT MÜZƏFFƏR OĞLU

# ƏHDİMİZ ƏDALƏT, HÜQUQ, DEMOKRATİYADIR

**Əziz həmvətənlər,**
**Dəyərli seçicilər,**
**Azərbaycan Respublikasının Prezidentliyinə qeydə alınmış namizəd Qüdrət Müzəffər oğlu Həsənquliyevin "Böyük dəyişikliklər" adlanan seçki platformasının dövlət quruculuğu ilə bağlı hissəsini müzakirənizə təqdim edirik:**

- Qarabağ üzərində dövlət suverenliyinin bərpası münasibətilə geniş amnistiya aktının qəbulu;
- 9 ay ərzində dövlət idarəetməsinin parlament respublikası modelini əsas götürən yeni Konstitusiyanın qəbulu;
- 2025-ci ilin fevralında yeni Konstitusiyaya uyğun olaraq proporsional seçki sistemi əsasında yeni parlament seçkilərinin keçirilməsi
- Yeni Konstitusiyada ölkəmizin Şimali Azərbaycan Cümhuriyyəti adlandırılması;
- Dövlət hakimiyyətinin həyata keçirilməsində hakimiyyətin bölünməsi (hakimiyyətin ayrı-ayrı qollarının bir-birinə nəzarət etməsi və balans yaratması) prinsipinə real məzmun verilməsi
- Milli Məclisin Ali Məclis adlandırılması;
- Çoxpartiyalı sistemin inkişafı üçün parlamentdə ən azı 3 siyasi partiyanın təmsil olunmasının konstitusion əsasının yaradılması və hər bir partiyaya və ya partiyalar blokuna Ali Məclisə keçirilən seçkilərdə topladığı səsdən asılı olmayaraq yerlərin 2/3-dən artığına sahib olmanın qadağan edilməsi;
- Yeni Konstitusiyaya uyğun olaraq yeni Seçki Məcəlləsinin qəbulu;
- Bürokratik aparatın müstəqil siyasi qüvvə kimi siyasi sistemdə çıxış etməsinə, o cümlədən siyasi vəzifələrə kadrlar seçməsinə son qoyulması
- Parlamentdə 5 il müddətinə seçiləcək prezidentə məhdud səlahiyyətli "seremonial şəxs" status verilməsi, icra hakimiyyətinin başında Baş Nazirin dayanması;
- Baş Nazirin namizədliyinin parlament seçkilərində qalib gələn siyasi partiya və ya siyasi partiyalar bloku tərəfindən irəli sürülməsi və Ali Məclisdə seçilməsi
- Dövlət idarəetmə orqanlarında struktur islahatlarının aparılması və dövlət aparatını çevik və yığcam etmək üçün məmurların sayının 1/3-dək azaldılması;
- Millət vəkillərinin 4 il müddətinə seçilməsi, onların sayının 151 nəfərə çatdırılması;
- Ali Məclisin Daxili Nizamnaməsində parlament fraksiyalarına idarəetmədə geniş yer verilməsinin nəzərdə tutulması, fraksiya nümayəndələrinin parlament sədrinin müavinləri, eləcə də komitə sədrləri və müavinləri səviyyəsində təmsil olunmaları;
- Yerli rəy sorğuları keçirmədən insanların normal həyatını pozan şəhərdaxili kütləvi mədəni və idman tədbirlərinin keçirilməsinin qadağan olunması, o cümlədən, Bakı sakinləri arasında Formula - 1 yarışları ilə əlaqədar rəy sorğusunun keçirilməsi;
- Hesablama Palatası sədrinin və auditorlarının yarıdan çoxunun parlamentdə müxalifəti təmsil edən siyasi partiyaların təqdim etdiyi namizədlər sırasından seçilməsi
- Büdcə və büdcəyə nəzarət komitəsinin yaradılması, adıçəkilən qurumun sədrinin və üzvlərinin yarıdan çoxunun Ali Məclisdə müxalifəti təmsil edən siyasi partityalar və siyasi partiyalar bloklarının təmsilçiləri sırasından seçilməsi;
- Dövlətin idarəetmə xərclərini azaltmaq, regionların inkişafına nail olmaq, yerli hakimiyyət orqanlarının formalaşdırılmasında xalqın iştirakını təmin etmək üçün ölkədə mövcud olan rayonlar ləğv edilərək onların yerində inzibati ərazi vahidi kimi 15 regionun yaradılması;
- Regionun 25, yaxud 31 nəfərdən ibarət məclislərinin, məclisdə isə regionun rəhbərinin seçməsi;
- Hər yaşayış məntəqəsinin öz bələdiyyəsinin olması;
- Naxçıvan MR-də yerli əhalinin "nazirlər və məmurlar ordu"sundan xilas edilməsi, dövlət idarəetmə xərclərinin əhəmiyyətli səviyyədə azaldılması, Naxçıvanın muxtar dövlət statusunun ləğv edilməsi və muxtar ərazi kimi 15-ci region statusunun verilməsi (Qeyd: Naxçıvanın muxtar respulika statusunun saxlanılmasının tərəfdarları Moskva və Qars müqavilələrinə istinad edirlər (Həmin müqavilələrdə Naxçıvanın muxtar ərazi kimi Azərbaycanın tərkibində olması nəzərdə tutulur, respublika, vilayət, yaxud mahal kimi yox);
- Naxçıvanın azad iqtisadi zona elan olunması;
- Hakimiyyətin hədsiz mərkəzləşməsinə son qoyulması, mərkəzi icra hakimiyyəti orqanlarının regionlarda səlahiyyətlərinin ciddi şəkildə məhdudlaşdırılması və regionlara geniş özünüidarə səlahiyyətlərinin verilməsi
- Konstitusiyaya nəzarət məqsədilə Baş Nazir tərəfindən regionlar üzrə valilərin (səlahiyyətli nümayndələrin) təyin olunması;
- Korrupsiyaya Qarşı Mübarizə Komissiyasının dövlət hakimiyyət orqanlarında təmsil olunmayan, 50%-i parlamentdə müxalifəti təmsil edən siyasi partiyalar tərəfindən namizədliyi irəli sürülən müstəqil şəxslərdən təşkil edilməsi;
- Dövlət hakimiyyət orqanlarında siyasi vəzifə daşıyan, dövlət idarə, müəssisə və təşkilatlarında vəzifə tutan və vəzifə səlahiyyətlərindən istifadə etməklə cinayətin törədilməsində iştirak edən şəxslərin əməllərinin korrupsiya cinayətləri hesab olunması
- Vergi ödəyicilərinin ödədiyi illik verginin həcminin ictimaiyyət üçün açıq olması;
- Dövlət satınalmalarında şəffaflığın artırılması üçün əlavə hüquqi mexanizmlərin yaradılması;
- Prezidentin, Baş Nazirin, deputatların və hakimlərin vəzifədən kənarlaşdırılmasının (vəzifə səlahiyyətlərinə xitam verilməsinin ) yalnız ağır cinayət törətdikdə və bu barədə Ali Məhkəmənin rəyi olduqda mümkün olması və həmin şəxslərin hamısı üçün vəzifədən kənarlaşdırmanın eyni prosedur qaydalarının tətbiq olunması;
- Məhkəmə sistemində islahatların davam etdirilməsi, vətəndaşları və sahibkarları məmur özbaşınalığından qoruya bilən, mülkiyyət toxunulmazlığına təminat verən güclü məhkəmə hakimiyyətinin formalaşdırılması;
- Andlı iclasçılar institutunun tətbiqi, hakimlərin ömürlük seçilməsi və onların sosial müdafiəsinin gücləndirilməsi, hakimlərin sayının 2 il ərazində Avropa standartlarına çatdırılması (Qeyd: Avropada hər 100 min nəfərə 20 hakim düşürsə bizdə bu rəqəm 6-dır);
- Konstitusiya Məhkəməsinin ləğv olunması, qanunların izahının verilməsi hüququnun qanunu qəbul edən orqana – Ali Məclisə, qanunların izahı ilə əlaqədar Ali Məclisə müraciət hüququnun qanunvericilik təşəbbüsü subyektlərinə verilməsi;
- Vəkillərin sayının 2 il ərzində Avropa standartlarına çatdırılması (Qeyd: Avropada 100 min nəfərə 147 vəkil düşürsə, bizdə bu rəqəm 23-dür);
- Sahibkarlara qarşılıqlı razılıq əsasında xarici arbitrajlara müraciət etmək hüququnun verilməsi;
- İstisnasız olaraq birinci instansiya məhkəmələrində ən azı 5 il işləmiş hakimlərin Apellyasiya Məhkəmələrinin hakimi seçilə bilməsi, eyni qaydada ən azı 5 il Apellyasiya Məhkəməsinin hakimi işləmiş şəxsin Ali Məhkəmənin müvafiq kollegiyasına seçilmək hüququnun nəzərdə tutulması;
- Azərbaycan Respublikasının vahid Dövlət İstintaq Komitəsinin yaradılması, Baş prokuror və ədliyyə naziri vəzifələrinin birləşdirilməsi, prokurorluğun Ədliyyə Nazirliyinin tərkibinə daxil edilməsi;
- Böyük ictimai rezonans doğurmuş və cəmiyyət tərəfindən obyektiv araşdırılmasına şübhələr olan cinayət işlərinin istintaqının yenilənməsi və andlı iclasçıların iştirakı ilə məhkəmədə yenidən baxılması;
- Yuxarıda qeyd olunan vəzifələri həyata keçirmək üçün yeni parlament seçkilərinə qədər milli birlik hökumətinin formalaşdırılması.




# Prezidentliyə namizəd Fuad Əliyevin SEÇKİ PLATFORMASI

**Hörmətli Azərbaycan Respublikasının vətəndaşları!**

**Əziz seçicilər!**

**7 fevral 2024-cü il tarixi Azərbaycan dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı kimi əlamətdar olacaqdır.**

**Bu günü Azərbaycan tarixinə qızıl hərflərlə yazmaq, gələcək nəsillər üçün suveren Azərbaycanı qoruyub yaşatmaq, ata-babalarımızdan bizə əmanət qalan dövlətçiliyimizi əmin dövlət başçısına etibar etmək Sizin əlinizdə olacaqdır. Müstəqil ölkənin müstəqil vətəndaşları olaraq seçkiyə gəlmək və layiq bildiyiniz namizədə səs vermək seçki günü ölkəmiz adına görə biləcəyiniz ən şərəfli iş və böyük vəzifədir.**

**"Vətəndaş Birliyi" seçki qərargahı vətəndaşlarımızın gələcək rifahı, dövlətimizin əbədi müstəqilliyi və suverenliyimizin qorunması üçün təsis olunmuş və Prezident seçkilərində mənim namizədliyimi irəli sürmüşdür. Vətəndaşlarımızın şəxsimə olan etimadını və inamını doğrultmaq üçün Prezident seçkilərində namizəd olmağı qəbul etmiş və bu məsuliyyəti dərindən dərk edərək seçkilərdə iştirakı şərəfli vəzifə hesab etmişəm.**

**Bu gün nəinki bizim dostlarımız, hətta bizi sevməyən bədxahlar belə ölkəmizin qazandığı uğurlardan və qələbələrdən heyranlıqla bəhs edirlər. Azərbaycanın bugünkü inkişafının davamlılığını təmin etmək, onu məkrli təsirlərdən qorumaq hər bir vətəndaşın və dövlətə rəhbərlik edən şəxsin çiyinlərinə ali və böyük məsuliyyət qoyur.**

**Bu böyük missiya və şərəfli işi davam etdirmək üçün qatıldığım Prezident seçkilərində mənə güvənəcəyinizə əminliyimi ifadə edirəm.**

"Vətəndaş Birliyi" seçki qərargahının müəyyənləşdirdiyi və namizəd kimi rəhbər tutduğum prinsipial tezislər:

– MİLLİ BARIŞ, MƏSULİYYƏTLİ HAKİMİYYƏT.
– PREZİDENT XALQIN XİDMƏTİNDƏ OLMALIDIR!
– NEYTRAL AZƏRBAYCAN.
– İNSAN ZƏKASI NEFT VƏ QAZDAN DAHA ƏHƏMİYYƏTLİDİR.
– KORRUPSİYAYA YOX, YÜKSƏK QİYMƏTLƏRƏ YOX, İNHİSARÇILIĞA YOX.
– AŞAĞI VERGİ, DÖVLƏT QAYĞISI, LAYİQLİ MAAŞ.
– VARLI VƏTƏNDAŞ – VARLI ÖLKƏ.

## "Vətəndaş Birliyi" seçki qərargahının namizədi Fuad Əliyevin seçki PROQRAMI:

**İdarəetmədə islahatlar:**

✓ Azərbaycanda dövlət idarəetməsində vətəndaş cəmiyyətlərinin iştirakının gücləndirilməsi;

✓ Ölkənin ərazi idarəetməsində islahatlar aparılması. Prezidentin 7 region üzrə nümayəndəliyinin formalaşdırılması. Mövcud icra hakimiyyətlərinin səlahiyyətlərinin bələdiyyələrə verilməsi;

✓ Nazirlər Kabinetinin səlahiyyətlərinin vitse-prezidentlik institutu ilə əvəz edilməsi;

✓ İdarəçilik sistemində bürokratiyanın qarşısını almaq məqsədilə dövlət idarələrinin təmərküzləşdirilməsi;

✓ Ordu quruculuğunda çağırış sistemindən imtina edilməsi, peşəkar döyüş qabiliyyətli ordunun qurulması.

**Sosial-iqtisadi hədəflər:**

✓ Əhali üçün yanacaq və elektrik enerjisi qiymətlərinin 2024-cu il aprelin 1-dən aşağı salınması;

✓ Azərbaycanda yaşayış minimumunun, habelə sosial müavinət və pensiyaların artırılması. İnflyasiya göstəricilərini nəzərə alaraq minimum aylıq əməkhaqqının 500 manata qədər artırılması. Pensiya yaşının kişilər üçün 62, qadınlar üçün 59 yaş həddində müəyyən edilməsi.

✓ Müəllimlərin və həkimlərin maaşlarının artırılması ilə təhsil sistemində və tibb sahəsində korrupsiyaya qarşı ünvanlı islahatların aparılması. Həkim və müəllimlərin 5 ildən bir əlavə sertifikasiya imtahanlarının ləğv olunması;

✓ Ali təhsil sistemində rəqəmsal, habelə innovativ və nanotexnologiyalar üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqətin ayrılması. Mühəndislik və informasiya texnologiyaları kimi ixtisasların populyarlaşdırılması;

✓ Azərbaycan təhsilində 1985-ci ildən əvvəl dünyada ən yaxşı hesab edilən orta məktəb təhsili ənənələrinin bərpa edilməsi. Kurikulumdan imtina edilməsi;

✓ Vətəndaşların ödədiyi vergilərin azaldılması;

✓ Çörək istehsalının satışına və qiymətlərinə nəzarətin dövlətin inhisarçılığında olması;

✓ Bakı şəhəri və digər böyük şəhərlərdə 7 mərtəbədən yüksək binaların tikilməsinə rəsmi qadağa qoyulması.

**Beynəlxalq fəaliyyət:**

✓ Azərbaycanın neytral ölkə statusunun rəsmi elan edilməsi;

✓ NATO və KTMT-yə bitərəf münasibətin saxlanması;

✓ Şanxay Əməkdaşlıq Təşkilatına və Avrasiya İqtisadi Birliyinə qoşulmaq istiqamətində fəaliyyət göstərilməsi və Türkdilli dövlətlərlə əməkdaşlığın gücləndirilməsi. Ölkəmizin GUAM təşkilatından çıxması;

✓ Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə ata-baba torpaqlarına qayıdışının beynəlxalq müstəvidə ədalətli həllinə nail olunması.

Əziz seçicilər,

Seçkiyə gəlin və gələcəyinizə səs verin!

**Layiqli həyatınızı FUAD ƏLİYEV ilə qazanın!**




# Azərbaycan Respublikası Prezidentliyinə namizəd, Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayevin

# SEÇKİ PLATFORMASI

**Azərbaycan yeni seçkilərə öz suverenliyini və sərhədlərini tam bərpa edən bir ölkə kimi gedir. İkinci Qarabağ müharibəsində qazanılan zəfər ölkənin sosial dövlət olaraq inkişafını zəruri edir. Bu inkişaf xalqımızı dünyanın ən varlı və xoşbəxt xalqlarından biri etmək missiyası daşımalıdır. Bunu əsas götürərək Milli Cəbhə Partiyası və onun prezidentliyə namizədi Razi Nurullayev Azərbaycanın sosial dövlət olaraq inkişafını və sosial demokratiyanın cəmiyyətdə bərqərar olmasını vacib hesab edir.**

**Azərbaycan Respublikasının Prezidentliyinə namizəd olaraq Razi Nurullayev inanır ki, ölkənin gələcəyi və inkişafı, sosial layihələrin həyata keçirilməsi indi qarşımızda duran əsas vəzifədir. İnsan ləyaqətinin uca tutulması, yüksək təhsil, əhalinin yaşlı təbəqəsinin sosial hüquqlarının qorunması və sosial təminatının artırılması, gənclərin iş və sosial həyatının təminatı, asudə vaxtının səmərəli təşkili bizim üçün əsas prioritetdir. Biz bununla sosial-demokratiya ideyasını ölkədə gerçəkləşdirəcək, savadlı, sosial hüquqları qorunan və təminatı olan cəmiyyət formalaşdıracağıq. Bunun üçün kompleks islahatlar aparılmasını zəruri hesab edirik.**

**Azərbaycanın inkişafı və perspektivləri, ideoloji prinsiplərin təbliği, sosial dövlətin inkişafı, təhsil, sosial təminatlar, biznes mühitinin keyfiyyətinin yaxşılaşdırılmasından keçir.**

**Platforma**

**1. İdeologiya sahəsində**

- Biz sosial-demokratiya ideoloji xəttini rəhbər tutaraq insanların bərabərlik, azadlıq və həmrəylik prinsipləri əsasında yaşamasını təmin edəcək, sinfi bölünmənin qarşısını alacaq, bununla da, xalqın azad və firavan yaşamasının təminatçısı olacağıq;
- Sosial-demokratik dəyərlərin cəmiyyətə aşılanması, öyrədilməsi və geniş xalq kütləleri tərəfindən qəbul edilməsinə nail olacaq və bu dəyərlərin müdafiəçisi olaraq onun qorunmasını təmin edəcəyik;
- Azad və firavan yaşayan xalqın bütün sosial, siyasi, iqtisadi hüquqları tərəfimizdən təmin ediləcək, insan hüquqlarının müdafiəsi və qorunması əsas baza prinsiplərimizdən biri olacaqdır;
- Sosial dövlət olaraq bizim inkişaf yolumuz təhsil və əhalimizin yaxşı yaşamasıdır. “100 faiz keyfiyyətli təhsil, 100 faiz orta gəlirli stabil təbəqə” ideoloji xəttimizin əsas tezislərindən biridir və bunun bazasında sosial-demokratiya ideyası durur.
- Planlaşdırılan sosial təminatın yerinə yetirilməsi üçün dövlət öz üzərinə düşən öhdəlikləri birmənalı yerinə yetirəcəkdir.

**2. Təhsil və elm sahəsində görüləcək işlər**

- Yeddi il ərzində bütün kəndlərdə uşaq bağçaları təşkil olunacaq;
- Bütün orta məktəblərdə nəzəri dərslər, məşğələlər və təcrübi dərslərlə uzlaşdırılacaq. Yalnız nəzəriyyə ilə dərs keçmə prosesi birdəfəlik aradan qaldırılacaq;
- Bütün bölgələrdə mövcud olan peşə məktəbləri xarici təcrübə ilə yenidən qurulacaq və ciddi şəkildə daxili və xarici sərmayələr cəlb ediləcək. Yeddi il ərzində peşə təlimi sahəsində Azərbaycanın 70-80 faiz civarında öz kadr ehtiyaclarını təmin etmək vəzifəsini üzərimizə götürürük;
- Test üsulunun tətbiqi yüksək keyfiyyətli və əhatəli bilik, o cümlədən təhsil sisteminin qarşısında maneəyə çevrilib. Ona görə də bu imtahan sistemini dəyişib müasir təhsil sisteminin sintezini yaratmaqla, rəqabət mühitini formalaşdıracağıq.
- Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsilə büdcədən ayrılan vəsaitin digər sahələrdən daha çox olması təmin ediləcək;
- İdarəetməyə təyinat yox, seçki sisteminin daha çox fayda gətirəcəyi qənaətindəyik. Ona görə də rektorlar təyinatla yox seçki yolu ilə seçiləcək;
- Dövlət ali təhsil müəssisələrində tədricən ölkə vətəndaşları üçün pulsuz təhsil tətbiq olunacaq; ilkin olaraq bütün qız uşaqlarının dövlət hesabına pulsuz təhsili təmin ediləcəkdir.
- Dövlət ali təhsil müəssisələri ilə yanaşı özəl ali təhsil müəssisələrində də qız uşaqlarının dövlət hesabına oxumasını dövlət öz üzərinə götürəcək;
- Elmin inkişafı üçün əsaslı vəsait ayrılacaq. Həqiqi olaraq elm sahəsində çalışan, özünü, həyatını və karyerasını elmə sərf etmək istəyən hər bir şəxsə ciddi dövlət stimulu yaradılmaqla bərabər, onların özəl sektora cəlbi də təşkil ediləcək. Yaxın bir il ərzində elmə ayrılan vəsait 5 dəfə artırılacaq.

**3. Səhiyyə sahəsində**

- Vətəndaşların sağlamlığının qorunması dövlətin konstitusion vəzifələrindən biridir. Səhiyyə sistemimiz hələ də yetərincə təkmilləşməyib. Səhiyyə sistemində ikili, bəzən üçlü (Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta və TƏBİB) idarəetmə sistemi nəticəsində problemlər ortaya çıxır.

Bunu üçün ilk növbədə:

- TƏBİB Səhiyyə Nazirliyinin tabelyinə verilməklə problemin müəyyən hissəsini həll etmək olar. Xəstəxanalar, klinikalar, dövlət poliklinikaları və digər tibb xidməti göstərən bütün müəssisələr Səhiyyə Nazirliyinin tabeliyinə verilir və TƏBİB isə fəaliyyəti təşkil edir.
- İcbari Tibbi Sığorta ilə bağlı yeni yanaşmalar tətbiq olunmalı, sığorta paketləri estetik əməliyyat və müalicələr istisna olmaqla bütün digər xəstəlikləri əhatə etməlidir. Onkoloji xəstəliklərlə bağlı xüsusi sığorta paketləri tətbiq ediləcək.
- İcbari Tibbi Sığorta ilə bağlı mühüm yanaşma isə reseptlərin də sığorta paketinə daxil edilməsidir. Ambulator müalicə alan xəstələrin də dərmanları sığorta vasitəsilə ödəniləcək.
- Ölkədə yüksək ixtisaslı peşəkar həkim kontingenti çatışmazlığı hiss olunmur. Lakin ixtisaslı kiçik tibb işçiləri ilə bağlı problemlər var və tibb kolleclərinin sayını artırmaqla bu problem həll ediləcək.
- Xaricdə təhsil alaraq orada işləyən və ölkədən xarciə gedən həkimlərin geri qayıtması ölkəmizdə insanların sağlamlığının keşiyində durmaları üçün stimullaşdırıcı proqramların qəbuluna başlanılacaq.
- Xarici ölkələrdə təhsl alan, orada işləyib təcrübə qazanan həkimlərin ölkəyə gəlib işləməsi üçün Dövlət İmtahan Mərkəzində daimi şəkildə fəaliyyət göstərən komissiya işləyəcək.

**4. Sosial sahədə**

- Azərbaycan əhalisinin artım tempinin qorunub saxlanması və uşaqlara dövlət qayğısının təminatı üçün uşaq pulu veriləcək.
- Pensiya yaşı azaldılacaq. Qadınlar üçün 60, kişilər üçün 62 yaş pensiya yaşı kimi müəyyənləşdiriləcək;
- Bütün növ pensiyaların minimum məbləği üç-dörd il ərzində 700 manat həddində müəyyənləşdiriləcək və indeksləşdiriləcək;
- İşləmək üçün 65 yaş həddi kvotası aradan qaldırılacaq. İşləyib-işləməmək üçün sağlamlıq əsas meyar olaraq qəbul ediləcək.
- Təcrübəli yaşlı nəsillə işləməyə üstünlük veriləcək, yaşlı və gənc nəslin inteqrasiyası elə aparılacaq ki, cəmiyyətdə ayrı-seçkilik hiss olunmasın və illərlə toplanan dövlət idarəetmə təcrübəsi məhv olmasın;
- İpoteka şərtlərinin sadələşdirilməsi təmin ediləcək. Bununla da xeyli vətəndaş kateqoriyaları üçün ipotekanın əlçatanlığı mümkün olacaq. İpoteka məbləğinin artırılması, əmək haqqı tələbininin aşağı salınması və fazilərinin azaldılması əsas prioritet olacaq.
- Qaz və işıq limitlərinə üçillik güzəşt tətbiq olunacaq. Ondan sonra iqtisadi artım, əhalinin gəlirləri və s. nəzərə alınaraq, limitlə bağlı məsələyə yenidən baxılacaq.
- Əmək haqlarının yeddi il ərzində ilkin olaraq azı iki-üç dəfə artırılması həyata keçiriləcək. Daha sonra əmək haqları indeksləşdiriləcək və infliyasiyaya uyğun tənzimlənəcək.
- Regionlarda, xüsusilə kənd yerlərində elə şərait yaradılacaq ki, kənddə yaşamaq şəhərdə yaşamaqdan daha rahat olsun. Biz kəndlərdə infrastruktur yaratmalıyıq, iş yerləri açmalıyıq ki, mövcud urbanizasiyanın qarşısını alaq.
- Ölkə boyu bütün rayon və şəhərlərdə sosial evlərin tikintisi ilə 7 il ərzində bu problemi birdəfəlik həll etmək niyyətindəyik.
- Müharibə veteranlarının mənzillə təmin edilməsinin dövlət proqramına əlavə edilməsi təmin ediləcək. Veteranlara verilən təqaüdün "Veteranlar haqqında" Qanunun 1-ci maddəsinin tələblərinə uyğun olaraq minimum əmək haqqı səviyyəsinə çatdırılması təmin olunacaq;
- Kənd əhalisi vəsait və texnika çatışmazlığından pay torpaqlarından səmərəli istifadə edə bilmir. Bu problemi aradan qaldırmaq üçün torpaqların kooperativlərdə birləşdirilməsi və birgə fəaliyyətlə bağlı proqram və layihələr həyata keçiriləcək;
- Regionların inkişafı üçün dövlət universitetlərinin fakültələrinin bir hissəsini rayonlara köçürmək əsas ideyalarımızdan biridir.
- Mənəvi dəyərlərin aşınmaması, cəmiyyətdə geriləmə olmaması üçün milli mədəniyyətimizin inkişafı qorunacaq, çap mediası, sosial media və televiziyaya nəzarət gücləndiriləcək. Gənc nəslin mənfi yöndə tərbiyələnməsinə rəvac verən veriliş və proqramlar qadağan ediləcək.

# MSK sədri “Seçki-2024” Media Mərkəzində

**Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin azad, ədalətli və şəffaf keçirilməsi üçün bütün imkanlardan istifadə edilir. Bu məqsədlə müxtəlif statuslu seçki subyektləri üçün əlverişli şəraitin və imkanların yaradılması istiqamətində silsilə layihələr reallaşdırılır.**



Dünən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov qarşıdan gələn seçkilərlə əlaqədar fəaliyyətə başlayan MSK-nın “Seçki-2024” Müstəqil Media Mərkəzində olub və komissiya üzvləri, həmçinin Katibliyin təmsilçilərinin iştirakı ilə mərkəzə baxış keçirilib. M. Pənahov mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub. O, yerli və beynəlxalq media nümayəndələrinin prezident seçkiləri ilə bağlı sərbəst və asan məlumat əldə etmələrinin, seçki prosesinin digər iştirakçılarına da daha effektiv və keyfiyyətli xidmət göstərilməsinin zəruriliyini vurğulayıb.

MSK sədri həm Müstəqil Media Mərkəzinin fəaliyyəti, həm də, ümumiyyətlə, prezident seçkilərinə hazırlıqların gedişi barədə media nümayəndələrinə açıqlama verərək deyib ki, Müstəqil Media Mərkəzinin yaradılmasında başlıca məqsəd seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsində mühüm rolu olan yerli və beynəlxalq media nümayəndələrinə daha geniş imkanlar yaratmaqdır. Mərkəz seçkiləri hərtərəfli, operativ və obyektiv işıqlandırmaqda, habelə məlumatları almaqda, dərhal ictimailəşdirməkdə onlara yardımçı olacaq. Media nümayəndələri müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunan mərkəzdəki kompüterlərdən, telefon və faks aparatlarından, o cümlədən ödənişsiz internetdən sərbəst istifadə edə bilərlər.

Müstəqil Media Mərkəzinin internet səhifəsi (www.secki-2024.az) Azərbaycan, ingilis və rus dillərində müntəzəm olaraq seçkilərə dair ən son məlumatları təqdim edir. Seçki prosesi ilə bağlı müxtəlif məsələlər barədə səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, habelə açıqlama və bəyanatlar dərhal ictimailəşdirilir, foto və videogörüntülər yayılır.

# Müstəqil Media Mərkəzi aşkarlığın önəmli tribunasıdır

**Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezident seçkiləri ilə bağlı jurnalistlərə açıqlamasında bildirib ki, səsvermədən sonra bütün proseslərin aşkar həyata keçirilməsi üçün Müstəqil Media Mərkəzi vasitəsilə şərait yaradılır. Azərbaycana gələn nümayəndələr, seçkilərlə maraqlanan tərəflər istədikləri vaxt burada mətbuat konfransları keçirə bilərlər.**



M.Pənahov deyib ki, Mərkəzi Seçki Komissiyası olaraq çalışmışıq ki, bu proseslərdə iştirak edək. Əgər hansısa problem yaranarsa, MSK səlahiyyətləri çərçivəsində dərhal tədbir görüləcək. O, MSK-nın Müstəqil Media Mərkəzinin fəaliyyətinə xüsusi əhəmiyyət verdiyini diqqətə çatdırıb. M.Pənahov mətbuatsız heç bir ölkəmiqyaslı prosesin hansı səviyyədə keçirilməsini dünya ictimaiyyətinə çatdırmağın mümkün olmadığını bildirib.

# Polisin seçki xidməti təkmilləşdirilir





**Prezident seçkiləri ilə əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində Şirvan şəhərində polisin seçkilərdə xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr olunan növbəti seminar-müşavirə keçirilib.**

Şirvan Şəhər Gənclər Mərkəzində keçirilən müşavirədə Mərkəzi Seçki Komissiyasının, Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, Şirvan şəhər və ətraf rayonların polis şöbələrinin əməkdaşları, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun uzunmüddətli beynəlxalq müşahidəçiləri iştirak ediblər.

Seminar-müşavirə Mərkəzi Seçki Komissiyasının üzvü Bəxşeyiş Əsgərov və Şirvan Şəhər Polis İdarəsinin rəisi Füzuli Əhmədovun çıxışları ilə başlayıb. Natiqlər qeyd ediblər ki, ölkəmizdə seçkilərin təşkili sahəsində böyük təcrübə qazanılıb. Əvvəlki illərdə olduğu kimi, budəfəki seçkilər də demokratik, ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun keçiriləcək. Bundan ötrü hazırlıq işləri yüksək səviyyədə aparılır.

B.Əsgərov seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları barədə geniş məlumat verib.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin nümayəndəsi Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı görüləcək təhlükəsizlik tədbirləri barədə məlumat verib. Bildirib ki, növbədənkənar prezident seçkilərinin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsi, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi məqsədilə Daxili İşlər Nazirliyində müvafiq Tədbirlər Planı təsdiqlənib və icrası xüsusi nəzarətə götürülüb. Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsində, eləcə də səsvermə günü seçicilərin, beynəlxalq müşahidəçilərin və seçki prosesində iştirak edən digər subyektlərin təhlükəsizliyinin təmin edilməsi, hüquqlarının qorunması, polis əməkdaşlarının vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi riayət etmələri və digər bu kimi məsələlər nazirliyin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır. Həmçinin seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün dairə və məntəqə seçki komissiyaları nümayəndələrinin polisin fəaliyyəti ilə bağlı qaldırdıqları bütün məsələlərin operativ qaydada həll olunacağı diqqət çatdırılıb.

Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi barədə danışıb.

Seminar-müşavirənin sonunda müxtəlif mövzular ətrafında müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırıb.

# Oğuz–Qəbələ–Şəki dairələrində maarifləndirmə



**Yanvarın 17-də 117 saylı Oğuz–Qəbələ–Şəki seçki dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlərə start verilib. Treninqlər 6 gün davam edəcək.**

Dairə seçki komissiyasının sədri Rəsul Cəfərov bildirib ki, treninqlərə dairənin tərkibinə daxil olan 63 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri cəlb olunub. Teninqlər Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında aparılır.

Dairə seçki komissiyasının üzvləri Aqşin Əlibəyli və Ceyhun Cabbarlının tədris etdiyi məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Komissiya sədrinin sözlərinə görə, bu dairə üzrə seçki məntəqələrinin 40-ı Oğuzda, 19-u Qəbələdə, 4-ü isə Şəki rayonu ərazisində yerləşir. Səkkiz məntəqədə veb-kamera quraşdırılıb. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə 54 min 425 seçici qeydə alınıb. Hazırda seçki dairəsində müşahidəçilərin qeydə alınması prosesi davam edir. İndiyədək 127 yerli müşahidəçi qeydiyyatdan keçib.

# Bölgələrdə seçki hazırlıqları

## Şimal-qərb dairələri

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə keçirilməsi üçün maarifləndirmə proqramının əhəmiyyəti böyükdür. Növbəti belə tədbir respublikanın şimal-qərb bölgəsində yerləşən rayonların seçki dairələrinin dairə seçki komissiyalarında məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün keçirilib. Aşağı seçki komissiyaları üzvləri üçün keçirilən treninqlərin məqsədi komissiya üzvlərinin peşəkarlıq səviyyəsini artırmaqdır.**



113 saylı Qax-Şəki seçki dairəsinin dairə seçki komissiyasında keçirilən və 6 gün davam edəcək treninqlərdə dairənin tərkibinə daxil olan 72 seçki məntəqəsindən 432 nəfər komissiya üzvünün iştirakı nəzərdə tutulur. Məşğələləri Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil edilən təlim kursunda iştirak etmiş Qoşqar Paşayev və Coşqun Mirzəbəyov aparırlar.

MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki günü prosedurları, səsvermə məntəqəsinin açılması, seçki materialları və avadanlığının, seçki qutularının hazırlanması, daşınan seçki qutusu ilə səsvermə prosesi, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilib.

110 saylı Balakən seçki dairəsində də aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib. Məşğələlər MSK tərəfindən təşkil olunan treninq kursunda iştirak etmiş Valeh Ocaqverdiyev və Rəcəb Ustayev tərəfindən aparılır.

## Şimal dairələri



**Dünəndən başlayaraq 55 saylı Siyəzən-Quba-Xızı, 56 saylı Şabran-Xaçmaz, 57 saylı Xaçmaz şəhər, 58 saylı Xaçmaz kənd, 59 saylı Quba, 60 saylı Quba-Qusar və 61 saylı Qusar seçki dairələri üzrə məntəqə seçki komissiyalarının üzvləri treninqlərə cəlb olunub.**

Treninqlər Mərkəzi Seçki Komissiyasının treninq qrupu tərəfindən hazırlanan cədvələ əsasən keçirilir. Təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan “Seçki günü üçün yaddaş” kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi, həmçinin bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Treninq layihəsi, ümumilikdə, 38 minə yaxın aşağı seçki komissiyası üzvünü əhatə edir. Treninqlər seçki dairələri üzrə məntəqə seçki komissiyalarının sayına müvafiq olaraq 3-10 gün ərzində keçiriləcək.

Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində aşağı seçki komissiyalarının üzvləri üçün treninqlərə start verilib.

## Ağdam dairəsi

**118 saylı Ağdam şəhər və 119 saylı Ağdam kənd seçki dairələrinin 118 seçki məntəqəsi üzrə, ümumilikdə, 700-dən artıq aşağı seçki komissiyası üzvünün iştirakı nəzərdə tutulur. Məşğələlər Mərkəzi Seçki Komissiyasının təşkil etdiyi “Trenerlər üçün treninq” kursunda iştirak etmiş trenerlər tərəfindən aparılır. Beş gün davam edəcək treninqlər gün ərzində iki dəfə olmaqla, hər sessiyada 36 nəfər məntəqə seçki komissiyası üzvünün iştirakı ilə keçirilir.**



Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, seçki günü müstəsna hallar, səslərin sayılması və səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumatlar əldə edirlər. Təlimdə iştirak edənlərə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan “Seçki günü üçün yaddaş” kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Bu gün investisiya – sabah yüksəliş, bolluq, rahatlıq!

## *Ötən il iqtisadiyyata 20 milyard manatdan çox sərmayə yatırılıb*

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən il Azərbaycanda əsas kapitala 20 milyard 296,6 milyon manat məbləğində, yaxud 2022-ci illə müqayisədə 9,8 faiz çox vəsait yönəldilib.**



Məlumata görə, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 10,9 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 9,3 faiz artıb. İstifadə olunmuş vəsaitin 12 milyard 485,2 milyon manatı və ya 61,5 faizi məhsul istehsalı sahələrinə, 6 milyard 840 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 971,4 milyon manatı (4,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş vəsaitlərin 16 milyard 411,5 milyon manatını və ya 80,9 faizini daxili vəsaitlər təşkil edib. Həmin vəsaitlərin 14 milyard 559,6 milyon manatı və ya 71,7 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların öz vəsaitləri 48,5 faiz, büdcə vəsaitləri 36,6 faiz, əhalinin şəxsi vəsaitləri 5,9 faiz, bank kreditləri 3 faiz, digər vəsaitlər isə 6 faiz təşkil edib.

Azərbaycanın qeyri-neft-qaz sahəsinə yatırılan birbaşa xarici investisiyaların həcminə gəldikdə isə qeyd edək ki, bu sektora cəlb olunan birbaşa xarici investisiyaların həcmi 2003-cü ildə 45 milyon ABŞ dolları olduğu halda, 2022-ci ildə 1 milyard 834 milyon ABŞ dolları olub ki, bu da 40,4 dəfə artım deməkdir.

Qeyd edək ki, hesabat ilində ölkə iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət həyata keçirilib. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində qeyri-neft sektorunun inkişafı təmin edilib, bu sahədə əhəmiyyətli irəliləyişlərə nail olunub. Bu tədbirlərin davamı olaraq iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsi və sahibkarlığın inkişafına əsaslanan rəqabətqabiliyyətli milli iqtisadiyyata çevrilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirilib.

Göstərilən hədəfə nail olmaq üçün dövlət tərəfindən ardıcıl olaraq dövlət–sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, rəqabətqabiliyyətliliyin və ixrac imkanlarının genişləndirilməsi, ən yüksək beynəlxalq standartlara uyğun olaraq elektron dövlət xidmətləri göstərilməsi sahələrini əhatə edən kompleks tədbirlər həyata keçirilib.

Dövlət–sahibkar münasibətlərinin inkişafından bəhs edərkən, bir məqamı da xatırlatmaq istərdik. Belə ki, son dövrlərdə ölkədə özəl sektorun genişlənməsi diqqətdə saxlanılıb. Bu məqsədlə yaradılan Sahibkarlığın İnkişafı Fondu tərəfindən hesabat ilində 3276 investisiya layihəsinin maliyyələşdirilməsi üçün 193,8 milyon manat dəyərində güzəştli kredit ayrılıb.

Ölkədə daxili investisiya qoyuluşu ilə bağlı yüksək göstəricinin əldə edilməsi demək olar ki, innovativ yanaşmaların tətbiqi ilə investisiya cəlbediciliyinin artırılmasının diqqətdə saxlanılmasından irəli gəlir. Bununla bərabər, ölkədə davamlı makroiqtisadi və maliyyə sabitliyi də investisiya fəallığını sürətləndirir. Sağlam və şəffaf biznes mühitinin yaradılması isə respublikaya yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırır. Bu strateji istiqamətin önəmi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və bir sıra dövlət proqramlarında vurğulanır, biznesin fəaliyyətinin beynəlxalq normalar əsasında formalaşması, həmçinin özəl sektorun inkişaf tempinin yüksəldilməsi məqsədilə yeni stimulların tətbiqi, iqtisadi islahatların davam etdirilməsinin zəruriliyi göstərilir.

Azərbaycanda investisiya cəlbediciliyinin gücləndirilməsində 1995-ci il yanvarın 13-də qəbul edilən "İnvestisiya fəaliyyəti haqqında" Qanun mühüm önəm daşıyır. Bu sənəd investisiyaların iqtisadiyyata cəlbini stimullaşdırmaqla bərabər, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. "Xarici investisiyaların qorunması haqqında" Qanun da sərmayədarların hüquq və mənafelərinin qorunmasını, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılmasını şərtləndirir.

Bu və digər tədbirlərin nəticəsində 2003–2022-ci illərdə Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların ümumi həcmi 310,4 milyard dollara yüksəlib, həmin göstəricinin, təxminən, yarısı –154,1 milyard dolları isə xarici investisiyalar olub.

Beləliklə, ölkəmizdə davamlı makroiqtisadi və maliyyə sabitliyi daxili və xarici investisiya fəallığını şərtləndirir. Sağlam və şəffaf biznes mühitinin yaradılması ölkəyə yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırır. Azərbaycanın beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında saziş imzalaması da iqtisadiyyata yatırılan daxili və xarici investisiya həcminin artırılmasını sürətləndirir.

Azərbaycanda iqtisadi artımın getdikcə yüksəlməsi, qeyri-neft sektorunda nəzərə çarpan müsbət tendensiyalar, eləcə də biznesin davamlı olaraq şəffaflaşması da investisiya qoyuluşuna ciddi töhfə verir. Bu məsələdə həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin təmin edilməsi, cəmiyyətdə vergi mədəniyyətinin formalaşması əsaslı rol oynayır. Yeri gəlmişkən, bu gün əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, şəffaf münasibətlərin qurulması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımlar da xüsusi diqqət çəkir.

Hazırda respublikada dövlət müəssisələrinə ayrılan sərmayələrin səmərəli istifadəsinə də nəzarət gücləndirilib. Belə ki, bu müəssisələrin maliyyə sağlamlığının və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək məqsədi ilə Azərbaycan İnvestisiya Holdinqi yaradılıb.

Bu, dövlət müəssisələrinin profisitinin artırılmasına, onların büdcədən asılılıqlarının azaldılmasına, azad bazar münasibətlərinin hərtərəfli inkişafına, özəl mülkiyyətin genişlənməsinə, daha sağlam prinsiplərə söykənən idarəçiliyə əsaslanmaqla iqtisadi inkişafın sürətləndirilməsinə hesablanan mühüm bir qərardır. Başqa sözlə, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması respublikada yerli və xarici investisiyaların sağlam təməllər üzərində reallaşdırılmasına öz müsbət təsirini göstərir, ölkədə vahid idarəetmə modeli işə düşür və bununla da dövlət şirkətlərinin maliyyə durumlarının yaxşılaşdırılması istiqamətində yüksək göstəricilər əldə edilir.

*Vaqif BAYRAMOV*
*XQ*

## Vergi daxilolmaları 3,8 faiz çoxalıb

**Keçən il ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 2022-ci illə müqayisədə 3,8 faiz artaraq 16 milyard 126,7 milyon manata çatıb.**



Dövlət Vergi Xidməti xəbər verir ki, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları əvvəlki illə müqayisədə 19,3 faiz artıb və 9 milyard 708 milyon manat təşkil edib.

## Astara terminalının yükaşırımı 3 dəfə yüksəlib

**"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) yaydığı xəbərdə qeyd edilir ki, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin önəmli struktur vahidlərindən biri olan Astara terminalında 2023-cü il ərzində 700 min tona yaxın yük aşırılıb. Bu isə terminalın fəaliyyətə başladığı 2018-ci illə müqayisədə 3 dəfə çoxdur.**



Hazırda terminalda biraşırımlı avtomobil yolu, üçaşırımlı kəmər bəndi, 4 biraşırımlı dəmir yolu körpüsü, 10 xidmət binası və 2 platformanın tikintisi işləri davam etdirilir. Cari il terminalın inşası tamamlandıqdan sonra yükaşırma gücünün illik 3,5-4 milyon tona çatdırılması nəzərdə tutulur.

Qeyd edək ki, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Azərbaycan və İran hökumətləri arasında əldə olunmuş razılaşmaya əsasən, 2017-ci ildə qlobal ticarətin təşviqi istiqamətində Astara terminalının inşasına başlanılıb.

Astara terminalında yükaşırma əməliyyatları 2018-ci ildən həyata keçirilir və 2022-ci ilin sentyabr ayından ADY-nin törəmə şirkəti olan "Astara Terminal" MMC tərəfindən aparılır.

## Abşeron və Xızıda bərpaolunan enerji mənbələri

**Abşeron və Xızıda bəzi sahələr bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib. Bununla bağlı Nazirlər Kabineti 31 may 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qərarında dəyişiklik edib.**



Qərara əsasən, gücü 240 meqavat olan "Xızı–Abşeron" külək elektrik stansiyasının tikintisi məqsədilə Abşeron rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 8,0052 hektar, Abşeron rayonu Pirəkəşkül–Qobustan Bələdiyyəsinin mülkiyyətində 6,1763 hektar, Xızı rayonunun inzibati ərazisində dövlət mülkiyyətində 3,7665 hektar və Xızı rayonu Sitalçay Bələdiyyəsinin mülkiyyətində 18,8293 hektar olmaqla, ümumilikdə, 36,7773 hektar torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilib.

*XQ*

# "Yaşıl" hidrogenə "yaşıl işıq!"

## Yeni kəmərlər, yoxsa mövcud qaz marşrutları?

**Trans-Adriatik Boru Kəməri (TAP) konsorsiumu hidrogen enerjisinin tədarükü ilə bağlı sınaqlara hazırlaşır. TAP AG konsorsiumunun məlumatına görə, sınaq işlərinə bu ay start veriləcək. Hazırda isə konsorsium tərəfindən boru kəməri ilə təbii qaz və hidrogen qarışığının nəqli üçün texniki imkanın qiymətləndirilməsi həyata keçirilir.**




Məlumatda o da bildirilib ki, 2021-ci ildə keçirilən tədqiqatın yekunlarına görə, TAP-ın potensial olaraq hidrogen qarışığını nəql edə biləcəyi tam təsdiqlənib. "Obyektlərimizin sınaqdan keçirilməsinə bu ay başlayacağıq və boru kəmərinin dəniz hissəsi ilə ilk nəticələrin 2024-cü ilin ikinci rübünün əvvəlinə əldə olunacağını gözləyirik", – deyə konsorsiumdan bildiriblər.

Eyni zamanda, TAP AG-dən bildiriblər ki, qurumun məqsədi hidrogenin ilkin olaraq təbii qazla qarışıq formasında nəqlini təmin etmək məqsədilə infrastrukturun inkişafından ibarətdir. Konsorsiumda hesab edirlər ki, hidrogen konsentrasiyasının hidrogen enerjisinin istehsalı bazarın inkişafına və müvafiq tələbə, eləcə də Avropa İttifaqı və üzv dövlətlər səviyyəsində normativ bazanın inkişafına uyğun olaraq tədricən artacaq.

Yeri gəlmişkən, 2050-ci ilədək karbon emissiyalarını sıfıra endirməyi hədəfləyən Avropa ölkələri "yaşıl keçid" platformasının əsas istiqamətlərindən sayılan hidrogenin istehsalı, onun saxlanması və ixracına nail olunması sahəsində intensiv iş aparırlar. Hidrogen isə planetimizdə ən bol elementlərdən biri olmaqla yanaşı, təmiz yanacaq növü kimi getdikcə daha çox maraq kəsb edir. Qeyd edək ki, "yaşıl hidrogen" bərpaolunan enerjidən istifadə edilərək elektroliz nəticəsində əldə olunan enerji növüdür.

Mütəxəssislərin dediyinə görə, hidrogen istehsalında külək və günəş enerjisi kimi bərpaolunan enerjidən istifadə olunduğundan onun tərkibində heç bir istixana qazı emissiyası yoxdur. Eyni zamanda, hidrogen yüngül qaz olduğu üçün yanma zamanı ondan üç dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə potensialın yüksək olmasına və ekoloji təmizliyinə görə hidrogeni "gələcəyin yanacağı" adlandırırlar. Məlum olduğu kimi, hazırda istehsal olunan hidrogenin çox cüzi hissəsi, təqribən, 1 faizi "yaşıl hidrogen"dir. Bununla belə, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin məlumatına görə, 2050-ci ilə qədər enerji istehsalının 12 faizi hidrogenin payına düşəcək.

Göründüyü kimi, hazırda bütün dünyada hidrogenin istehsalı və istifadəsi ilə yanaşı, onun ixracı məsələsi də xüsusi aktuallıq kəsb edir. Mütəxəssislər bu yanacağın boru kəmərləri ilə nəqlini ən optimal variant hesab edirlər. Hazırda bunun üçün məqbul sayılan iki variant üzərində iş gedir. Birinci variant hidrogenin nəqli üçün ayrıca boru kəmərlərinin çəkilməsi ilə bağlıdır. Digər variant isə mövcud magistral qaz kəmərlərinin hidrogenin daşınması üçün modernləşdirilməsini və yenidən qurulmasını nəzərdə tutur.

Artıq ölkəmizdə hidrogen istehsalı üzrə pilot layihələrin hazırlanmasına başlanılıb. Bu da təsadüfi deyil. Çünki 2016-cı il aprelin 22-də Birləşmiş Millətlər Təşkilatının Mənzil–Qərargahında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Razılaşmasına imza atan 171 ölkədən biri də Azərbaycan Respublikası olub. Eyni zamanda, alternativ və bərpaolunan enerji sahəsində yüksək potensiala malik olan Azərbaycan, həm də Avropanın prioritet elan etdiyi "yaşıl enerji" platformasına qoşulan ilk ölkələrdəndir. Hazırda ölkəmiz bu məqsədlə Avropa Komissiyası ilə bir çox sahələri əhatə edən fəal enerji dialoqu aparır. Danışıqların mövzusuna isə təkcə təbii qaz deyil, həm də bərpaolunan enerji və "yaşıl hidrogen" daxildir.

Qeyd edək ki, hazırda Azərbaycanın ixrac etdiyi "mavi yanacağ"ın 50 faizindən çoxu məhz Avropa ölkələrinin payına düşür. "Köhnə qitə" isə 2050-ci ilədək karbon emissiyalı yanacaq növündən tam imtina etməyi hədəfləyir. Bu baxımdan gələcək uğurlu əməkdaşlıq üçün Azərbaycan, ilk növbədə, ekoloji təmiz enerji, o cümlədən "yaşıl hidrogen" istehsalına nail olmalıdır. Bunun üçün isə ölkəmizin bərpaolunan enerji potensialı kifayət qədərdir. "Yaşıl hidrogen" istehsalına gəldikdə isə, Azərbaycan özünün zəngin qaz ehtiyatları hesabına hidrogen enerjisi istehsalına nail olmaq baxımından yaxşı imkanlara malikdir. Azərbaycan Memarlıq və İnşaat Universitetinin ekologiya kafedrasının müdiri, professor Fəqan Əliyev Azərbaycan dövlətinin hidrogen enerjisinin istehsalına başlamaqla bağlı təşəbbüsünü olduqca təqdirəlayiq hesab edir.

Hidrogen enerjisinin təmiz sudan, çaylardan alındığını bildirən alimin sözlərinə görə, bu sahədə problem yalnız onu necə saxlamaqdan ibarətdir. F.Əliyevin fikrincə, hidrogen adi metalda qalmır, süzülüb gedir, amma nano təbəqə edilməklə onu saxlamaq və nəql etmək mümkündür.

Ötən müddətdə ölkəmizin hidrogen potensialının qiymətləndirilməsi sahəsində də müəyyən işlər görülüb. Bu baxımdan Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini yekunlaşdırıb. Azərbaycan Respublikası Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin dediyinə görə, hesabatda çox müsbət fikirlər yer alıb. Eyni zamanda, Dövlət Neft Şirkətində də bu sahədə müəyyən təhlillər aparılır.

Bəs, Azərbaycan gələcəkdə istehsal edəcəyi hidrogeni dünya bazarlarına hansı formada ixrac edə bilər? Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, hidrogenin boru kəmərləri ilə nəqli ən optimal variant hesab olunur. Hazırda bunun üçün məqbul sayılan iki variant üzərində iş gedir. Birinci variant hidrogenin nəqli üçün ayrıca boru kəmərlərinin çəkilməsi ilə bağlıdır. Digər variant isə mövcud magistral qaz kəmərlərinin hidrogenin daşınması üçün modernləşdirilməsini və yenidən qurulmasını nəzərdə tutur.

Ekspert bu baxımdan Cənub Qaz Dəhlizinin seqmentləri sayılan Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP-ın kəmərlərinin yeni olduğundan metan nəqlindən hidrogenə çevrilmək üçün texniki və texnoloji baxımdan daha münasib hesab edir. Onun sözlərinə görə, 2035-2040-cı illərdə istər elmin, istərsə də qaz sənayesinin hidrogenin ötürülməsi ilə bağlı oturuşmuş bir baxışı olacaq. Bu zaman hidrogen istehsalçılara və istehlakçılara, o cümlədən onu nəql edən qurumlara daha sərfəli qiymətlərə başa gələcək.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycanın uğurları Davos zirvəsində

## *COP29-un ölkəmizdə keçirilməsi diqqət mərkəzindədir*

**İsveçrənin Davos şəhərində “Etimadın bərpası” devizi ilə keçirilən 54-cü Dünya İqtisadi Forumunun (DİF) illik toplantısının əsas məqsədi kollektiv fəaliyyət azadlığını bərpa etmək və liderlər arasında şəffaflıq, ardıcıllıq və hesabatlılıq kimi əsas prinsipləri gücləndirməkdir. Forumda parçalanmış dünyada təhlükəsizlik və əməkdaşlığa nail olunması, müasir dövrdə iqtisadi artım, yeni iş yerlərinin yaradılması, süni intellekt iqtisadiyyatının cəmiyyətin hərəkətverici qüvvəsinə çevrilməsi, həmçinin iqlim dəyişikliyi üzrə uzunmüddətli strategiyanın hazırlanması və COP29-un Azərbaycanda keçirilməsi kimi prioritet məsələlər müzakirə edilir.**




DİF-in “COP28 və qarşıdakı yol” adlı panel müzakirəsində çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov cari il Azərbaycanda keçiriləcək COP29 konfransına böyük ümidlər bəslənildiyini, COP28 konfransının qərarlarının yerinə yetirilməsi ilə bağlı prioritet vəzifələrin reallaşdırılması və ən başlıcası həmin məqsədlərin gerçəkləşdirilməsi üçün tələb olunan lazımi vəsaitin ayrılmasının qarşıdakı dövrdə prioritet istiqamət olduğunu, buna prosesin iştirakçısı olan ölkələrin liderlərindən həm də siyasi iradə tələb etdiyini vurğulayıb. İqtisadiyyat naziri daha sonra deyib:

– Azərbaycan “yaşıl enerji” payının artırılması ilə bağlı məqsədinə gözlənildiyindən də tez nail ola bilər. Çünki ölkəmiz qalıq yanacaqların işlədilməsi ilə yanaşı, təmiz enerjiyə keçidə başlamaq üçün şüurlu seçim edib. Respublikamız 2030-cu ilə qədər enerjiyə olan tələbatın 30 faizini bərpaolunan enerji mənbələrindən gerçəkləşdirmək istiqamətində son illərdə mühüm tədbirlər həyata keçirib. Buna, təxminən, 2028-ci ilə qədər nail ola biləcəyimizi düşünürük. Onu da qeyd edim ki, əvvəlki danışıqlardan, xüsusən də COP28-dən öyrəndiyimiz dərslərdən biri odur ki, təcridetmə faydasızdır. Yəni bu problemin – qalıq yanacaqların zərərindən xilas məsələsinin dünya ölkələrin birgə səyi ilə həlli mümkündür.

M.Cabbarov çıxışında Azərbaycanda keçiriləcək COP29 tədbiri çərçivəsində səmərəli investisiya strategiyalarını və karbon tullantılarının sıfıra endirilməsini təşviq edən tərəfdaşlıqların dəstəklənməsinin iqlim dəyişiklikləri üzrə çağırışlara verəcəyi töhfələr barədə də ümidlərini diqqətə çatdırıb.

İqtisadiyyat naziri DİF-in panel müzakirəsi zamanı, həmçinin qeyd edib ki, COP28 sayəsində enerji səmərəliliyinin, bərpa olunan enerji mənbələrinin həcminin artırılmasına yönələn diqqət və digər nüanslar uğurdur. Bu prosesi eyni formada yüksək səviyyədə keçirmək isə məsuliyyətdir. Burada əsas məsələ maliyyələşdirmə mexanizmlərinin təminidir ki, bu da son dərəcə əhəmiyyətli prioritetdir.

DİF çərçivəsində Mikayıl Cabbarov bir sıra görüşlər də keçirib. Nazirin “Japan Tobacco International” şirkətinin beynəlxalq əlaqələr üzrə direktoru Ana Velykoviç ilə görüşündə bu tanınmış qurumun ölkəmizlə ikitərəfli əməkdaşlığı barədə söhbət açılıb, Azərbaycanın COP29 tədbirinə evsahibliyi çərçivəsində nəzərdə tutulan layihələr, həmçinin özəl sektorun COP29-un fəaliyyətinə cəlb olunması barədə fikir mübadiləsi aparılıb.

İqtisadiyyat nazirinin forum çərçivəsində keçirdiyi digər bir görüş isə Beynəlxalq Standartlaşdırma Təşkilatının baş katibi Serxio Muxika ilə olub. Görüşdə qlobal çağırışlara uyğun həlləri təmin edən standartların tətbiqi, ölkəmizdə yüksək keyfiyyətli ekoloji mühitin dəstəklənməsi üzrə təşəbbüslərin gerçəkləşməsi kimi məsələlər nəzərdən keçirilib. Eyni zamanda respublikamızda keçiriləcək COP 29 tədbiri çərçivəsində Beynəlxalq Standartlaşdırma Təşkilatı ilə əməkdaşlıq və beynəlxalq standartlar ictimaiyyəti üçün etibarlı proqramın hazırlanması üzrə tərəfdaş təşkilatlarla işbirliyi barədə müzakirələr aparılıb.

DİF-də Azərbaycan və BƏƏ arasında dayanıqlı enerji mənbələrindən istifadəyə keçid sahəsində birgə layihələrin perspektivləri də müzakirə edilib. Bununla bağlı iqtisadiyyat naziri Mikayıl Cabbarov və BƏƏ-nin iqtisadiyyat naziri, Azərbaycan-BƏƏ Birgə Hökumətlərarası Komissiyasının həmsədri Abdulla bin Tuq Əl Marr arasında keçirilən görüşdə hər iki dövlətin münasibətlərinin yüksək səviyyədə olduğu məmnunluqla vurğulanıb və iqtisadi tərəfdaşlığın gündəliyində olan məsələləri nəzərdən keçirib. Eyni zamanda, hazırda gündəlikdə Azərbaycan-BƏƏ Birgə Hökumətlərarası Komissiyasının 9-cu iclasına hazırlıq, ticarət dövriyyəsinin artımı və biznes əlaqələrinin inkişafı istiqamətində təşəbbüslər, COP29 çərçivəsində əməkdaşlıq kimi məsələlərin önəmli yer tutduğu diqqətə çatdırılıb.

İqtisadiyyat nazirinin Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) birinci vitse-prezidenti Yurgen Riqterink ilə görüşündə isə EBRD-Azərbaycan əməkdaşlığının bərpaolunan enerji sahəsində genişləndirilməsinin əhəmiyyəti, ölkəmizin beynəlxalq təşəbbüslərdə fəal təmsilçiliyi və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) tədbirinin ölkəmizdə keçirilməsinin perspektivləri vurğulanıb.

DİF çərçivəsində “Carlsberg Group” şirkətinin Azərbaycanda istehsalının lokallaşdırılması planları da müzakirə edilib. Nazir adıçəkilən şirkətin baş icraçı direktoru Yakob Orup-Andersen ilə yeni əməkdaşlıq imkanlarını dəyərləndirib. “Azərbaycandakı uğurlu fəaliyyəti və ölkəmizdə aparılan iqtisadi islahatların biznes mühitinə müsbət təsiri barədə danışdıq. Şirkət tərəfindən ölkəmizdə istehsalın lokallaşdırılması sahəsində görülən işləri və yeni əməkdaşlıq imkanlarını dəyərləndirdik”, – deyə M. Cabbarov qeyd edib.

Yeri gəlmişkən, COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qərarına DİF-in panel müzakirəsində, eyni zamanda, ikitərəfli görüşlərdə müsbət yanaşılması təqdirəlayiq haldır. Bu, bir tərəfdən beynəlxalq aləmi düşündürən, narahat edən məsələyə həssaslıqla yanaşılması, digər tərəfdən isə belə bir önəmli layihənin dünyada sülhpərvər mövqeyi ilə böyük nüfuz qazanan Azərbaycanda gerçəkləşdirilməsi irəli bağlıdır.

Qeyd edək ki, COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda reallaşan plenar iclasında qəbul olunub. COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. İki həftə Bakının dünyanın mərkəzi olacağı və şəhərin təqribən 70-80 min xarici qonağı qarşılayacağı gözlənilir.

Xatırladaq ki, bərpaolunan enerji mənbələrinin elektrik enerjisi istehsalında xüsusi çəkisinin 2026-cı ilədək 24 faizə, 2030-cu ilə kimi isə 30 faizə çatdırılması Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün Sosial-İqtisadi İnkişaf Strategiyasında nəzərdə tutulub.

Energetika Nazirliyinin məlumatına əsasən, Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

DİF çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Əbu Dabi Milli Neft Şirkəti (ADNOC) ilə “Abşeron” yatağından qaz hasilatı layihəsi, aşağı karbonlu həllər və bərpa olunan enerji mənbələri, gələcək əməkdaşlıq üçün potensial imkanlar da müzakirə edilib. Bu barədə SOCAR-ın prezidenti Rövşən Nəcəf “X” sosial şəbəkəsindəki hesabında yazıb: “ADNOC şirkətinin Aşağı Karbon Həllləri və Beynəlxalq İnkişaf üzrə İcraçı Direktor Musabbeh Al Kaabi (Musabbeh Al Kaabi) ilə strateji dialoq apardıq. Dünya İqtisadi Forumu zamanı biz “Abşeron” layihəsinin gedişatını, onun tammiqyaslı inkişafını, həmçinin aşağı karbonlu həlləri və bərpa olunan enerji resurslarını müzakirə etdik və gələcək əməkdaşlığın potensial imkanlarını araşdırdıq”.

Bu məqamda xatırladaq ki, ötən ilin dekabr ayında SOCAR və ADNOC arasında Strateji Əməkdaşlığa dair Saziş imzalanıb. Saziş SOCAR ilə ADNOC şirkətləri arasında ətraf mühitin mühafizəsi sahəsində birgə fəaliyyətin daha da genişləndirilməsini, “mavi hidrogen”, geotermal və karbon idarə edilməsi üzrə əməkdaşlıq məsələlərini nəzərdə tutur.

2023-cü ilin avqust ayında ADNOC şirkəti “Abşeron” qaz-kondensat yatağında 30 faizlik iştirak payının əldə edilməsi ilə bağlı SOCAR və Fransanın “TotalEnergies” şirkəti ilə saziş imzalayıb.

Qeyd edək ki, Rövşən Nəcəf Davosda ABŞ-nin iqlim üzrə xüsusi nümayəndəsinin müavini Rik Dyukla da məhsuldar müzakirələr keçirib. Tərəflər arasında dekarbonizasiya, iqlim problemləri, planetin dayanıqlı gələcəyinə yardım sahəsində potensial əməkdaşlıq məsələləri müzakirə olunub.

***V.BAYRAMOV***
***XQ***

# Dövlət himayəsi ildən-ilə yüksəlir

## 4-cü sosial paket də uğurla gerçəkləşdirilib

**“Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla 2023-cü ildə sayca 4-cü sosial paket həyata keçirilib. Bu sosial paket 1,9 milyon vətəndaşı əhatə edib və ayrılan illik əlavə maliyyə 750 milyon manat təşkil edib”. Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev nazirliyin ötənilki fəaliyyəti ilə bağlı XQ-yə bildirdi.**



O, fikirlərinin davamında minimum əməkhaqqı və pensiya məbləğlərinin, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanların aylıq vəzifə maaşlarının, müavinət və təqaüdlərin, həmçinin digər sosial ödənişlərin məbləğlərinin əhəmiyyətli dərəcədə artırıldığını diqqətə çatdırdı: “Pensiya artımında vahid indeksasiya metoduna keçilib. Bütün pensiyalar 14,7 faiz indeksləşdirilərək artırılıb. Pensiyaların orta məbləği 436 manata, yaşa görə pensiyanın orta məbləği 467 manata çatdırılıb. Ümumilikdə, ötən il pensiya ödənişləri 5,7 milyard manat təşkil edib. Müavinət ödənişləri 24 faiz artırılaraq ümumilikdə, 491 min şəxsi əhatə edib, 378 min nəfərə Prezident təqaüdü ödənişi aparılıb. Ünvanlı dövlət sosial yardımının bir ailəyə düşən orta aylıq məbləği 487 manat olub”.

A.Əliyev məşğulluq mərkəzləri tərəfindən 118 min 400 şəxsin işlə təmin edildiyini vurğuladı. Bildirdi ki, 17 min 400 nəfər özünüməşğulluq proqramına, 9 min 500 nəfər peşə hazırlığına, 282 min şəxs isə peşə yönümü məsləhəti xidmətlərinə cəlb edilib. Əmək müqavilələrinin sayı 1,8 milyona çatıb, əməkhaqqı fondunda 15 faiz artım baş verib. Böyük Qayıdış Proqramı çərçivəsində işaldan azad edilmiş ərazilərdə geniş miqyaslı məşğulluq tədbirlərinə və sosial xidmət infrastrukturunun qurulmasına başlanıb. Artıq bu ərazilərə köçürülmüş 1100-dən çox şəxsin məşğulluğu təmin edilib, peşə hazırlığı proqramının icrasına başlanıb, Füzuli və Laçında əmək yarmarkaları keçirilib. Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, həmin ərazilərdə işləyən mütəxəssislər üçün bir sıra güzəştlər müəyyən edilib.

9 şəhər və rayonu əhatə edərək 900 mindən çox şəxsə xidmət göstərən Qarabağ Regional DOST Mərkəzinin, həmçinin Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin istifadəyə verildiyini, İsmayıllıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin “DOST Evi” filialının açılışını qeyd edən nazir müavini daha sonra dedi: “Ötən il DOST mərkəzlərində 702 min şəxsə xidmət göstərilib, xidmətlərdən məmnunluq səviyyəsi 98,1 faiz təşkil edib. Əlilliyi olan şəxslərə dəstək tədbirləri davam etdirilib. Ötən dövrdə 50 min 700 şəxsə əlillik təyinatı aparılıb, 87 min 700 şəxsə reabilitasiya xidməti göstərilib, 91 min 400 reabilitasiya vasitəsi təqdim edilib. Nazirliyin 13 sosial xidmət müəssisəsi tərəfindən həssas əhali qruplarından olan 2 min 900-dək şəxsə sosial xidmət, 6 min 100 şəxsə səyyar sosial məişət xidməti göstərilib. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində 180-dən çox benefisiar 14 yaradıcılıq istiqaməti üzrə təlimlərdə iştirak edərək bacarıq və qabiliyyətlərini inkişaf etdirib”.

Sonra A.Əliyev ölkənin sosial reyestri olan “e-sosial.az” portalı üzrə istifadəçilərin sayının 1,5 milyona çatdığını, hesabat dövründə portal vasitəsi ilə vətəndaşalara 8 milyondan çox xidmət göstərildiyini dedi. Bildirdi ki, sosial ödənişlər üzrə 238 min proaktiv təyinat aparılıb, 220 min fərdi hesab açılıb, 400 mindən çox elektron arayış verilib. Ümumilikdə, nazirlik üzrə elektron xidmətlərə 18 milyon müraciət qeydə alınıb. Həyata keçirilən sosial islahatlar beynəlxalq arenada da yüksək qiymətləndirilib, ötən il nazirlik 22 beynəlxalq mükafat və sertifikata layiq görülüb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Yarış meydanlarında**

**Start ayını yaşadığımız və idman dünyasında XXXIII Yay Olimpiya Oyunları ilə əlamətdar olacaq 2024-cü ilin birinci yarısı artıq arxada qalıb. Beynəlxalq Olimpiya Komitəsinin (BOK) bayrağı altında birləşən 200-dən çox ölkə iyulun 26-dan avqustun 11-dək keçiriləcək Paris Olimpiadasına mümkün qədər çox lisenziya qazanmaq, ümumdünya idman bayramında geniş nümayəndə heyəti ilə təmsil olunmaq əzmindədir. Qarşıdakı yarım il olimpiya təsnifat yarışları və reytinq xarakterli turnirlərlə zəngindir. Kəsgin rəqabətdə milyonlarla idman pərəstişkarı çox maraqlı hadisələrin şahidi olacaq.**

# Ölkəmizin Olimpiya marafonu

Fransa paytaxtında keçiriləcək Olimpiya oyunları Azərbaycan idmançıları üçün ikiqat məsul startlara çevriləcək.

Komandamızın dünya idmanının ən ali yarışlarında uğurlu çıxışları Azərbaycanda olimpiya hərəkatı rəhbərliyinin gərgin və məqsədyönlü fəaliyyətinin nəticəsidir. İdmançılarımız ən çox medalı 2016-cı il Olimpiadasında qazanmışlar. Həmin il əfsanəvi Pelenin vətəni Braziliyanın Bakı ilə qardaşlaşmış Rio-de-Janeyro (portuqal dilindən tərcüməsi “Yanvar çayı” deməkdir – O.B.) şəhərində təşkil edilən XXXI Olimpiya Oyunlarında Azərbaycan təmsilçilərinə birdən-birə 18 medal – 1qızıl, 7 gümüş və 10 bürünc mükafat təqdim olunmuşdu. Bizim üçün rekord göstərici idi!



Ölkəmizin idmançıları 2024-cü ili Olimpiadaya 9 vəsiqə ilə qarşılamışlar. Bu, böyük rəqəm deyil. Amma qarşıdakı yarım ildə lisenziya xarakterli yarışlar çox olacaq. Deməli, təsnifat turnirlərindən sonra sınaq və şöhrət meydanı olan olimpiya startlarında ustalığı nümayiş etdirmək imkanı verən vəsiqələrin sayının qat-qat artacağına inamımız böyükdür. Burada qeyd edək ki, güləşçilərin Avropa olimpiya təsnifat turniri aprelin birinci ongünlüyündə Bakıda keçiriləcəkdir. Mayda isə bu növün nümayəndələri İstanbulda dünya olimpiya təsnifat turnirində qarşılaşacaqlar.

Azərbaycan idmanı nümayəndələrindən Olimpiadaya ilk 9 vəsiqəni güllə atıcısı Ruslan Lunyov, boksçular Murad Allahverdiyev (80 kq), Məhəmməd Abdullayev (+92 kq), yüngül atletikanın çəkictullama növündə Anna Skidan, bədii gimnastikada Zöhrə Ağamirova, sərbəst üsulla güləşən Maqomedxan Maqomedov (97 kq), yunan-Roma güləşi ustaları Sənan Süleymanov (77 kq), Həsrət Cəfərov (67 kq) və taekvondoçu Qaşım Maqomedov (58 kq) qazanmışlar.

Görək növbəti lisenziyalara nə vaxt, hansı növlərdə sevinəcəyik. Azərbaycanın idman həvəskarlarının ən çox olimpiya vəsiqəsi gözlədikləri növlər ilk növbədə güləş, cüdo və boksdur. Bu növlər olimpiyaçılar komandamızın əsas silahı, mükəmməl zərbə qüvvəsidir. Ən yaxşı güləşçilərimiz, tatami və rinq ustalarımız olimpiadalarda fəxri kürsüyə yüksəlməyin yolunu daha yaxşı bilirlər. Səkkiz il əvvəl Rio Olimpiadasından vətənimizə 1 qızıl və 1 bürünc medal gətirmiş taekvondoçular, eləcə də digər növlərin nümayəndələri də Fransa paytaxtının idman meydanlarında yarışıb, yüksək nəticələr göstərmək əzmindədirlər. Medallara yol isə ağır lisenziya sınaqlarından keçir, əvvəlcə mümkün qədər çox olimpiya vəsiqəsi qazanmaq lazımdır…

Şahmat Olimpiya oyunları proqramına daxil deyil. Ancaq zəka sahiblərinin də öz olimpiadaları var. Bu il onlar üçün də çox ciddi imtahan ilidir. Payızın birinci ayında qrossmeysterlər 45-ci Ümumdünya Şahmat Olimpiadasının medalları uğrunda mübarizə aparacaqlar. Sentyabrın 10-dan 23-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək bu yarışda, əlbəttə ki, Azərbaycanın həm kişilərdən, həm də qadınlardan ibarət komandaları da iştirak edəcəklər. Qədim oyun pərəstişkarlarımız, həmişəki kimi, Olimpiada görüşlərini böyük maraqla gözləyir və ümidlə yaşayırlar desək, yəqin ki, səhv etmərik.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

BGTZ və ZGTTZ-nin tərsanə bölməsinə tələb olunan malların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 25-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Balansındakı idarələr üçün əlvan metalların satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 22-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1047.

Ünvan- Bakı, M.Useynov küçəsi 2.

BİLDİRİŞ

“Suraxanı Oyl Opereyşn Kompani S.A.” Şirkətinin Azərbaycan Respublikasındakı Nümayəndəliyinə, Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi tərəfindən verilmiş 22 noyabr 2023-cü il tarixli, FHN738-00336 qeydiyyat nömrəli “Təhlükəli yüklərin nəqliyyat vasitəsi ilə daşınması” Lisenziyası (No072202) itmişdir. Tapan şəxsdən lisenziyanın şirkətin nümayəndə liyinə təhvil verilməsi xahiş olunur. (Ünvan: AZ1042, Suraxanı qəsəbəsi, Xanlar Ələkbərov küçəsi.)

**Vasif Quliyev – 70**

# Şuşa sevgisinin söz ucalığı

**Universitetin jurnalistika fakültəsində oxuduğumuz illərdən tanıyıram onu. Məndən 2 kurs yuxarıda oxuyurdu. İlk baxışdan qaradinməz adam təsiri bağışlasa da, qəlbən yumşaq, xeyirxah və təmkinli insandır.**

Müxtəlif tədbirlərdə görüşüb həmsöhbət olurduq. Doğma yurdu Şuşa haqqında elə həvəslə, elə şirin danışırdı ki... Tələbəlik illərində onun imzası ilə Şuşa haqqında bir sıra ictimai məzmunlu məqalələri mətbuat səhifələrində də oxumuşdum. İti müşahidə qabiliyyəti ilə seçilir, yazdıqlarının məsuliyyətini dərindən dərk edirdi. Bir faktın izi ilə günlərlə kitabxanalarda və arxivlərdə çalışır, saralıb solmuş qəzetlərdən, toz basmış sənədlərdən axtardığı zəngin məlumatları topladıqdan sonra məqalələrini işıq üzünə çıxarırdı. Arxivlərdə çəkdiyi əziyyət öz bəhrəsini verəndə sevinirdi.

Onun yazılarını ardıcıl izləyir və məqalələrini maraqla oxuyurdum. Məqalələri dəqiq faktlara və həyat həqiqətlərinə söykənirdi. Mən o yazıları oxuya-oxuya bir tələbə-jurnalist kimi, həm də tarixi həqiqətləri öyrənirdim. Tələbəlik illərində və sonralar, onun məqalələri o dövrün aparıcı qəzetləri olan “Azərbaycan gəncləri”, “Ədəbiyyat və incəsənət”, “Sovet kəndi”, “Azərbaycan müəllimi”, rus dilində nəşr olunan “Molodyoj Azerbaydjana”, “Bakinski raboçi” və “Vışka”da dərc olunurdu.

Vasif Şuşanın Malıbəyli kəndində doğulub, boya-başa çatıb. Şuşanın hər məhəlləsinə, hər küçəsinə, hər dalanına bələddir. “Xan qızı” bulağının, “Turşsu” bulağının, “İsa bulağı”nın suyundan içib. “Cıdır düzü”ndə, “Nəvvabın kahası” və “Üçmıx zirvəsi” deyilən yerlərdə keçən uşaqlıq illərindən və orada gördüklərini xoş xatirələr kimi mənimlə bölüşürdü. Deyirdi ki, Şuşada Səttar Bəhlulzadənin daş üstündə oturub rəsm çəkdiyini də görüb, Bülbülün konsertlərinin də şahidi olub, Xan Şuşinski ilə qohumlarının görüşü də uşaq yaddaşında dərin iz buraxıb.

Vasif Quliyevin adını Şuşasız təsəvvür etmək çətindir. O, Şuşanı varlığı qədər sevir, Şuşa ilə nəfəs alır. Şuşa ilə bağlı çox xeyirxah işlər görüb. Bunlar onun Şuşaya olan sonsuz sevgisinin, torpağa bağlılığının bariz nümunəsidir. Onun Şuşadan başlayıb uzanan Vətən məhəbbəti cığırları bütöv Qarabağ boyunca uzun bir yola dönüb. O, bu yolda yürüməkdən yorulmayıb. Bu yol Qarabağın tarixinə aparan yola, Qarabağın yetirdiyi tarixi şəxsiyyətlərin ömür yoluna qovuşub.

Vasif Quliyev mənə Tanrı nəfəsli Şuşanın dağları kimi doğma təsir bağışlayır. Özünə və sözünə bələd olduqdan sonra aramızda səmimi ünsiyyət, dostluq münasibəti yaranıb. Tələbəlik illərindən bu yana onunla səmimi ünsiyyətimiz davam edir. Hər dəfə görüşəndə arayıb ərsəyə gətirdiyi və qələmə aldığı tapıntılardan, maraqlı arqument və faktlardan, yeni yaradıcılıq planlarından danışır.

Zəngin biliyə malik tədqiqatçı-jurnalist Vasif Quliyevin bir üstün cəhəti mətbuatda çıxan məqalələrini yenidən işləyib kitab halında nəşr etdirməsidir. “Ucalığa gedən yol”, “Maarif fədaisi”, “Enək İsa bulağına”, “Əgər şuşalısansa”, “Vətən bağı al-əlvandı”, “Dünənə uzanan cığır” adlı publisistik kitablarını oxuyanda istər-istəməz Şuşa havasına köklənirsən. Özünü Şuşanın dağlarında hiss edirsən, qəlbində xoş ovqat yaranır. Ümumilikdə, 100-ə qədər, təkcə Şuşa və Qarabağ haqqında isə 20-dən çox kitab yazıb. Yorulmaz tədqiqatçı-jurnalist olduqca məhsuldar işləyir. Şuşanın Azərbaycana bəxş etdiyi tarixi şəxsiyyətlər – alimlər, ədəbiyyat və sənət adamları, rəssamlar haqqında saysız-hesabsız maraqlı məqalələri var. Musiqi sahəsində Sadıqcan, Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyov, Soltan Hacıbəyov, Əfrasiyab Bədəlbəyli, Niyazi, Seyid və Xan Şuşinskilər, Zülfü Adıgözəlov, Vasif Adıgözəlov, Fikrət Əmirov, Süleyman Ələsgərov və başqalarının adlarını iftixarla çəkir.

Qasım bəy Zakir, Firudin bəy Köçərli, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Əhməd bəy Ağayev, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov və Əbdürrəhim bəy Haqverdiyevin Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətlərini sevə-sevə qələmə alıb. Vasif müəllim bu dahi insanların şəxsiyyəti, yaradıcılığı və yaşadığı ictimai mühit haqqında oxucuya müfəssəl məlumat verib. Eləcə də əslən Şuşadan olan generallar Məhəmmədhəsən ağa Cavanşir, onun nəvəsi, Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirov, generallar Xəlil Məmmədov, Fərəc bəy Ağayev və Şuşada dünyaya göz açmış 50-yə yaxın digər ali rütbəli hərbçinin həyat yolunu doğru-düzgün, kamil şəkildə oxucuya çatdırıb. Buna görə də onun tədqiqatları bütöv bir Şuşa ensiklopediyası təsiri bağışlayır.

Memar Səfixan Qarabaği, heykəltəraş Cəlal Qaryağdı, nəqqaş Qəmbər Qaryağdı, rəssamlar Mir Möhsün Nəvvab, Toğrul və Vidadi Nərimanbəyovlar, Əmir və Altay Hacıyevlər, Ağəli İbrahimov və digər məşhur şəxsiyyətləri də yetirib Şuşa. Vasif Quliyev onların da həyatına güzgü tutub... Xalqımız üçün dəyər sayılan bu şəxsləri səmimiyyət düyğusu ilə tərənnüm edib.

...Şuşa işğalda olduğu illərdə Vasifin qəlbindən qara qanlar axırdı, üzü gülmürdü. Nisgilini dilə gətirəndə onun üzünə baxmaq olmurdu. Dinəndə ömrünün Şuşalı illərini yana-yana xatırlayır, ötənləri vərəq-vərəq çevirib olmuşları, keçmişləri yada salırdı. Deyirdi ki, Qarabağ dərdimiz nəhayətsizdir. Vətənin heç bir qarış torpağını da düşmən tapdağı altında qoymaq olmaz. Ona görə də yazılarında Qarabağ və Şuşa ruhunun qorunmasını önə çəkirdi.

Vasif Quliyev Şuşanın azad, bəxtəvər günlərində də dəfələrlə doğma yurd yerlərinə səfər edib. O, Şuşanın keçmiş məhəllələri – Seyidli, Quyuluq və Çuxur məhəllələrinin yerini gözüyumulu bilir. Şəhərin bünövrəsi bu məhəllələrdə qoyulub və sonradan şaxələnərək bütün Şuşaya yayılıb. Cıdır düzünü, Daşaltı çayını, tac-şəhərin köndələn evlərini, daş döşənmiş küçələrini nağıllardakı kimi təsvir edir.

O, yaşının müdriklik çağında da yaradıcılıq axtarışlarından qalmır, yazıb



yaradır. Onun “Mehmandarovlar”, “Qacarlar”, “İgidlərin sayı çoxdur bu yerdə”, “Cəlil Məmmədquluzadə və Qarabağ ədəbi mühiti”, eləcə də “Qarabağ xanı”, “Qarabağ “Molla Nəsrəddin” jurnalının səhifələrində” adlı əsərləri də gərgin axtarışların, yuxusuz gecələrin bəhrəsidir. Elmi-publisistik səviyyəsi ilə seçilən məqalə və oçerkləri oxuyanda tariximizə yenidən ekskurs edir və yeni-yeni məlumatlarla biliklərimizi zənginləşdiririk.

İstedadlı jurnalist, naşir, tərcüməçi, redaktor olan Vasif Quliyevin yaradıcılığı o qədər çoxşaxəli, geniş və zəngindir ki, onu bir məqaləyə sığışdırmaq mümkünsüzdür. Doğma Malıbəylidə səkkizillik məktəbi bitirdikdən sonra orta təhsilini Xankəndi şəhərindəki Nizami Gəncəvi adına orta məktəbdə davam etdirib. Sonra Xankəndi şəhərindəki elektrotexnika zavodunda və Bakı Soyuducular Zavodunda fəhlə kimi çalışıb, 1974–1976-cı illərdə hərbi xidmət keçib. Tərxis olunduqdan sonra universitetin hazırlıq şöbəsinə qəbul olub. Universiteti bitirdikdən sonra bir müddət Televiziya və Radio Verilişləri Komitəsində işləyib, maraqlı verilişlər hazırlayıb, ssenarilər yazıb.

*

Dünən Azərbaycan Mətbuat Şurasında tanınmış yazıçı-jurnalist, “Şuşa” qəzetinin və “Günəş” jurnalının baş redaktoru Vasif Quliyevin anadan olmasının 70 illiyi münasibətilə keçirilən mərasimdə AMŞ sədri Rəşad Məcid yubilyarın mediamızın inkişafında və milli-mənəvi dəyərlərimizin təbliğində çoxillik səmərəli fəaliyyətini yüksək qiymətləndirərək ona rəhbərlik etdiyi qurumun təbrik plaketini təqdim etdi.

Dövlət Qaçqınkomun məsul işçisi Elşən Əliyev isə məcburi köçkünlük dövründə “Şuşa” qəzetinin nəşrini davam etdirdiyini, Qarabağda məhv edilmiş mədəni abidələr barədə geniş tədqiqat apardığını qeyd edərək qurum sədri Rövşən Rzayevin təbrikini və təşəkkürünü Vasif Quliyevə çatdırdı.

Mərasimdə AMŞ Ahıl Jurnalistlər Məclisinin sədri Tahir Aydınoğlu, qocaman tarixçi alim Yunis Hüseynov, əməkdar jurnalistlər Adil Cəmil və Namiq Qədimoğlu, şair Ağacəfər Həsənli, yubilyarın qələm dostları İlham İsmayıl, Mədət Məmmədov, Hikmət Sabiroğlu və digər çıxış edənlər Vasif Quliyevi bir sıra kitablara mövzu olmuş Şuşa sevgisindən, demokratik irsimizin, Qarabağın mənəvi dünyasının qaranlıq səhifələrinin öyrənilməsində xidmətlərindən danışdılar, ona möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzuladılar.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

**Yaddaş işığı**

# “Əlamətdar və tarixi günlər təqvimi”

**Ölkəmizdə “Əlamətdar və tarixi günlər təqvimi” 1961-ci ildən nəşr edilir. Gərəkli vəsaitin nəşri 1992-ci ildə dayandırılsa da, 2005-ci ildən bərpa olunub. Ötən illərdə təqvim daha da təkmilləşdirilib, mövzu üzrə bölmələrin sayı artırılmaqla nəşr daha əhatəli məlumat mənbəyi kimi formalaşıb.**



Mədəniyyət Nazirliyi aparatı struktur bölmələri və bütün mədəniyyət müəssisələri üçün tövsiyə olunan təqvimdən, eyni zamanda, müəllimlər, ziyalılar və media nümayəndələri həvəslə istifadə edirlər.

Azərbaycan Milli Kitabxanasının direktoru, nəşrin baş redaktoru, Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov XQ-yə müsahibəsində bildirdi ki, kitabxanalarda, mədəniyyət müəssisələrində, teatrlarda, kütləvi informasiya vasitələrində və digər qurumlarda bu kitaba böyük tələbat var: “Böyük zəhmət bahasına başa gələn təqvimin nəşrindən əsas məqsəd geniş oxucu kütləsi və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən ən mühüm hadisələri, kitabxana işi haqqında və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır. Builki təqvimə də milli və dünya ədəbiyyatının, incəsənətin, müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri haqqında, milli və beynəlxalq günlər, peşə bayramları barədə mühüm məlumatlar daxil edilib”.

Kitabın baş redaktoru qeyd etdi ki, təqvimdə istifadə edilmiş məlumatların mütləq mənada mənbələri də göstərilib. O, 2024-cü il üçün nəzərdə tutulmuş təqvimin spesifik xüsusiyyətlərindən də danışdı: “2024-cü il üçün hazırladığımız təqvimə Vətən müharibəsi zamanı həlak olmuş şəhidlərimizin hamısı barəsində məlumatlar dərc olunub. Bu kitab sanki şəhidlər barəsində salnamədir. Əvvəlki illərlə müqayisədə builki təqvimin səhifələri çoxaldılmış, məlumatlar daha da konkretləşdirilmişdir”.

Kərim Tahirov kitabın cildinin yaşıl rəngdə olmasını Prezident İlham Əliyevin sərəncamı ilə bu ilin “Yaşıl dünya naminə həmrəylik ili” olması ilə əlaqələndirdi.

*Rizvan FİKRƏTOĞLU,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# Növbəti idman filmləri festivalı

**Milli Olimpiya Komitəsinin (MOK) təsis etdiyi ikinci “İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı” keçirilir.**



“Televiziya festivalları Azərbaycan idmanının salnaməsini yaradacaq. Ölkəmizdə idman öz həqiqi yerini tapır. Ümid edirəm ki, bu cür festivallar çox olacaq”.

Bu fikirləri Rəşid Behbudov adına Mahnı Teatrında müxtəlif federasiyaların təmsilçiləri və idman ictimaiyyətinin iştirak etdiyi açılış mərasimində mediaya müsahibəsində Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Təşkilat Komitəsinin sədri Çingiz Hüseynzadə deyib. O, daha sonra bildirib ki, analoji festival 2-ci dəfə keçirilir. “İlk festival 2021-ci ildə MOK-un 30 illiyinə həsr olunmuşdu. Məqsəd gənclər arasında idmana marağı artırmaq və onların uğurlarını işıqlandırmaqdır. İkinci festivalın da uğurla keçəcəyinə əminik. İstəyirik ki, Azərbaycanı dünyaya tanıdan idmançılara, qəhrəmanlara həsr olunmuş bədii filmlər də çəkilsin və növbəti festivallarda bədii film nominasiyasında da qalibləri müəyyənləşdirək”.

Qeyd edilib ki, federasiyalar, televiziya kanalları, özəl studiyalar və yaradıcı kollektivlər bu istiqamətdə fəal iş aparır, filmlər, videoçarxlar çəkirlər. Bu festival Azərbaycan idmançılarına dəstək olacaq. Festival 5 Mart Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində başa çatacaq. Həmin gün münsiflər heyəti tərəfindən yüksək qiymət alan ilk üç film mükafatlandırılacaq. Ardınca MOK-un himninin yeni videoklipi təqdim olunub.

Mərasimdə festivalın münsiflər heyətinin sədri – atıcılıq üzrə Sidney–2000 Olimpiya Oyunlarının çempionu Zemfira Meftahətdinova bu kimi tədbirlərin artıq ənənəyə çevrilməsindən məmnunluq duyduğunu söyləyib: “Çox gözəl nominasiyalar var. Hər kəsi burada iştiraka dəvət edirik. Qoy, güclülər qalib gəlsin”.

Sonra “Azərbaycanın Olimpiya Odisseyası” layihəsi çərçivəsində sərbəst güləş üzrə XXX London Olimpiadasının qalibi Toğrul Əsgərov haqqında çəkilən "Ərtoğrul" filmi nümayiş olunub. Xatırladaq ki, bu film Lozanna şəhərində keçirilən I Beynəlxalq İdman Mətbuatı Assosiasiyası Festivalında Avropa qitəsini təmsil edib və “Avropa TOP 10-luğu”na düşüb.

*XQ*

# Elm xəbərləri

## “Yaşıl dünya” həmrəyliyi

**Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutunda “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş elmi seminar təşkil olunub.**



İnstitutun baş direktor vəzifəsini icra edən biologiya üzrə fəlsəfə doktoru, dosent Minarə Həsənova Prezident İlham Əliyevin 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında sərəncamı ilə bağlı institutda görüləcək işlərdən danışıb.

Ötən il Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası məqsədilə “Yaşıl həyat” layihəsinin icrası və gələcəkdə həmin ərazilərdə təbiətin mühafizəsinin gücləndirilməsi, ekoloji maarifləndirmə işinin təşkili üçün həyata keçiriləcək bu kimi layihələr barədə məlumat verilib.

Elmi seminarda institutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri Nuray Qədirova, bitki sistematikası laboratoriyasının elmi işçisi Venera Əhmədova, meşə ekosistemləri laboratoriyasının elmi işçisi Nigar Bədəlzadə “Yaşıl dünya sağlam həyatdır” mövzusunda çıxış ediblər. Ölkəmizin 2024-cü ildə İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına – COP29-a edəcəyi ev sahibliyindən və həmin tədbirin Azərbaycanda keçirilməsinin ölkəmizə olan böyük inamın təzahürü olduğundan danışılıb.

Qeyd edək ki, ölkə prezidenti Naxçıvan Muxtar Respublikasını, işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ ərazilərini “yaşıl enerji” zonası elan edib. İşğaldan azad olunmuş bölgələrə böyük qayıdış layihələrinə başlanılıb. Bərpa-quruculuq işləri çərçivəsində həyata keçirilən meqalayihələr yaşıl texnologiyalara əsaslanır. Azad olunmuş bölgələrdə ağıllı şəhərlər, kəndlər salınır, təmiz nəqliyyat infrastrukturu yaradılır.

## Oksford professoru Bakıda

**Böyük Britaniyanın Oksford Universitetinin professoru Riçhard Voalker ilə Milli Elmlər Akademiyasında maraqlı görüş keçirilib.**

Fydalı fikir mübadiləsində AMEA-nın vitse-prezidenti, Yer elmləri bölməsinin rəhbəri, akademik İbrahim Quliyev, Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli, zəlzələ ocaqlarının dinamikası şöbəsinin müdiri, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent Səbinə Kazımova və beynəlxalq əlaqələr şöbəsinin müdiri Telman Cəfərov da iştirak ediblər. Oksford Universiteti ilə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi arasında ikitərəfli əməkdaşlıq məsələləri, eləcə də birgə elmi tədqiqatların aparılması və layihələrin həyata keçirilməsi kimi məsələlərə toxunulub.

Görüşdə, həmçinin Böyük Britaniyanın Oksford Universiteti və RSXM əməkdaşlarının ötən il Salyan və Göyçay rayonlarında birgə apardıqları tədqiqatlar zamanı qazılmış xəndəklərdən götürülmüş nümunələr əsasında alınmış paleoseysmoloji nəticələr və maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

Qeyd edək ki, işgüzar əlaqələrin daha da genişləndirilməsi məqsədilə aprel ayında Azərbaycan nümayəndə heyətinin Oksford Universitetinə tanışlıq səfəri nəzərdə tutulur.

*XQ*

# Hər kitab bir dünyadır




## Klassik irsə məhəbbətlə

**Respublika Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə yenicə işıq üzü görmüş “Nəsimi və Füzuli” adlı kitabında da ənənəsinə sadiq qalaraq söz korifeylərimizin həyat və fəaliyyətinə geniş aspektdə nəzər salıb.**

“Elm və təhsil” nəşriyyatında çap olunmuş kitabda klassiklərin irs kontekstində fərdi yaradıcılığın bədii-fəlsəfi təkamülü məsələləri araşdırılır. Müəllif nəzəri-analitik təhlil yolu ilə orta əsrlərin söz dahiləri olan Nəsimi və Füzuli poeziyasının sehrini – bədii-fəlsəfi mənasını, unikal simvolik-metaforik formasını, bütövlükdə poetik sistemini açmağa çalışıb. Monoqrafiya filoloqlar, filosoflar, bu sahə ilə məşğul olan doktorantlar və Azərbaycan klassik ədəbiyyatını sevənlər üçün nəzərdə tutulub.

## “Millətçiliyin cəzası”

**Özbəkistanın tanınmış yazarlarından biri Xeyrəddin Sultanın “TÜRKSOY kitabxanası” seriyasından 59-cu nəşr olan kitabı belə adlanır.**

Müəllifin indiyə qədər 20-dən artıq kitabı nəşr olunub, əsərləri müxtəlif dillərə çevrilib. Onun hekayə, povest və romanlarına dərin bir lirizm, realizm hakimdir. Kitabını özbək dilindən çevirən və “Ön söz”ün müəllifi olan BDU Türkoloji Araşdırmalar Mərkəzinin müdiri, professor Ramiz Əskər Xeyrəddin Sultanın yaradıcılıq məziyyətlərini əhatəli təhlil süzgə-




cindən keçirərək hekayələrinin süjet xətti və təhkiyəsinin həzin, original olduğuna diqqəti cəlb edib. “Bəxt”, “Atabəyin dəfni”, “Vəlican dayının xəstəliyi”, “Millətçiliyin cəzası”, “Anamın yurdu” kimi əsərləri haqqında ürək sözlərini böyük məhəbbətlə ifadə edib.

*Ə.DOSTƏLİ*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 10 (30414) 18 yanvar 2024-cü il, cümə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

**2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!**




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# “Vüqar Həşimov Memorialı” Şuşada

**Şahmat üzrə “Vüqar Həşimov Memorialı” bu il Şuşada keçiriləcək.**




Yarış avqustun 27-dən 31-dək davam edəcək.

Xatırladaq ki, bundan əvvəlki analoji yarış Qəbələdə təşkil edilmişdi.

# Bölgə gimnastları Bakıda təlim-məşqdə

**Zaqatala və Qax Olimpiya İdman komplekslərinin bədii gimnastika bölməsinin üzvlərinin Milli Gimnastika Arenasında təlim-məşq toplanışı davam edir.**




Toplantıya 2012–2017-ci il təvəllüdlü bədii gimnastlar qatılıb. Yanvarın 20-dək davam edəcək məşqlərdə 11 idmançı iştirak edir.

Məqsəd bölgələrdə gimnastikanın inkişaf etdirilməsi, idmançıların hazırlıq səviyyəsinin gücləndirilməsidir.

# IX turun ilk oyunu – 18 yanvar

**Kişi voleybolçular arasında Azərbaycan çempionatında IX turun ilk oyununun vaxtı dəqiqləşib.**



“XQ” xəbər verir ki, turun açılış matçı yanvarın 18-də təşkil ediləcək. İlk oyunda “Azərreyl” MOİK komandası ilə gücünü sınayacaq. Görüş Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində, saat 16:00-da başlayacaq.

Qeyd edək ki, hazırda “Azərreyl” və “Murov Az Terminal”ın aktivində 15 xal var. Komandalar 2–3-cü yerləri bölüşdürürlər. MOİK isə xalsız qalan yeganə komandadır.

***Leyla SABİRQIZI***
***XQ***

# Bakının caz qrupu Brüsseldə



***Bu günlərdə Brüsseldə müxtəlif məkanlarda Brüssel Caz Festivalı keçirilir. Yanvarın 20-dək davam edəcək bu caz bayramına töhfə vermək və Azərbaycanın məşhur caz məktəbini Avropada tanıtmaq məqsədilə pianoçu-bəstəkar, Xalq artisti Salman Qəmbərov və “Bakustik caz” qrupunun konserti təşkil edilib. Konsert Belçikadakı səfirliyimizin dəstəyi ilə caz pərəstişkarlarının ən sevilən məkanlarından biri olan Brüsselin “The Music Village” caz klubunda təşkil edilib.***

Konsertin belçikalı təşkilatçısı Kevin Van Nuffel açılış nitqində musiqinin ölkələr arasında mədəniyyət körpüsünün yaradılmasında əhəmiyyətli rol oynadığını qeyd edib, Azərbaycan caz məktəbinin tarixi haqqında məlumat verib.

İl ərzində 300-dən çox canlı konsertə ev sahibliyi edən “The Music Village” caz klubunun daimi dinləyiciləri bu dəfə Azərbaycan etno-caz janrı ilə yanaşı, musiqiçilərimizin ifasında 1930-cu ildə rejissor Mikayıl Mikayılov tərəfindən ekranlaşdırılmış “Lətif” (“Üz-üzə”) filmi üçün Salman Qəmbərov tərəfindən bəstələnmiş eyni adlı kompozisiyanı dinləyiblər.

***XQ***

**Texnologiya**



# “Telegram”da audio-video mesajı təzələnib

**“Telegram” mesencerində maraqlı funksiya işə salınıb. Yenilik audio və video mesajlarla bağlıdır. Belə ki, artıq istifadəçilər ilk dinləmədən dərhal sonra silinəcək səsli mesajlar göndərə biləcəklər.**

Bunun üçün audiomesaj yazarkən üzərində “1” rəqəmi olan düymə seçilir. Bundan əlavə, mesencer istifadəçiləri artıq audio və videomesajların yazılmasına fasilə vermək və sonra onu davam etdirmək imkanı da əldə edəcəklər.

Funksiya tətbiqin yenilənmiş versiyasında artıq mövcuddur.

***Fidan SALMANOVA***
***XQ***

# Səsdənsürətli yeni təyyarə

***ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar İdarəsi (NASA) və “Lockheed Martin” hərbi-sənaye korporasiyası eksperimental səsdənsürətli “X-59” təyyarəsini təqdim edib. Kaliforniya ştatının Palmdeyle şəhərindəki “Lockheed Martin” zavodunda keçirilən mərasim barədə xəbər NASA-nın saytında yayımlanıb.***



“Questst” proqramı çərçivəsində hazırlanan təyyarənin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, səs sürətindən yüksək hərəkət edərkən partlayış eşidilmir. NASA ümid edir ki, yeni təyyarənin sınaqları 50 il əvvəl tətbiq edilən, ABŞ və bəzi digər ölkələrdə qüvvədə olan səsdənsürətli kommersiya təyyarələrinin uçuşlarına qoyulan qadağanın aradan qaldırılmasına imkan verəcək.

Tərtibatçılar qeyd edirlər ki, “X-59” prototip deyil, eksperimental təyyarədir və ondan istifadə gələcəkdə səsdənsürətli sərnişin təyyarələrinin hazırlanması üçün məlumatların toplanmasına imkan verəcək.

Təyyarənin uzunluğu 30 metr, qanadları 9 metr və sürəti saatda 1488 kilometrə çata bilir ki, bu da səs sürətindən yüksəkdir.

***XQ***

# Füzulinin dağıdılmış “söz yuvası”

## Bir zaman burada “Araz” qəzetinin redaksiyası yerləşirdi



**Üç il əvvəl Azərbaycan Milli Ordusu Füzulini erməni hərbi birləşmələrinin işğalından azad edəndən sonra şəhərdə vəziyyət belə idi.**

Əbəs yerə deyil ki, Prezident, Ali Baş Komandan İlham Əliyev xarabazara çevrilmiş şəhərdəki həmin mənzərə barədə demişdi: “Füzulidə bayraq sancmaq üçün bir bina qalmamışdı”. Şəhərdə salamat bina olmadığından üçrəngli Azərbaycan bayrağı rayon qəzetinin redaksiyasının yerləşdiyi binanın uçulub dağılmış giriş qapısından asılmışdı.

O bina ki...Bir dəfə tanınmış şair Vaqif Bəhmənli “Doğulduğunuz Füzuli rayonu işğaldan azad edilsə, birinci olaraq hansı ünvana üz tutardınız?” sualına belə cavab verdi: “Orada mənə çox doğma olan “Araz” qəzetinin redaksiyası var. İlk növbədə, həmin redaksiyaya baş çəkərəm, çünki mən poeziyada ilk addımlarımı orada atmışam, şeirlərim ilk dəfə orada işıq üzü görüb...”

Bu binanın qapılarından kimlər keçməyib? Seyran Səxavət, Bəhram Nəsibov, Lətif Vəlizadə, Nemət Veysəlli, Mətləb Misir, Oruc Səda, Vahid Əlifoğlu, Əbülfət Mədətoğlu, Umud Rəhimoğlu...

Mən ilk dəfə bu binanın pilləkənlərinə ayaq basanda ürəyim uçunub. Orta məktəb illərində mil-mil şagird dəftərlərinə yazdığım şeir və məqalələri qəzet səhifələrində görmək arzusu ilə bu ünvana üz tutmuş, onun qapısına ayaq basmışam. İlk dəfə imza sevincini məhz bu ünvanda işıq üzü görən qəzet vasitəsilə yaşamışam... Sonralar adıma ilk əmək kitabçası bu ünvanda açılıb, ən doğma və unudulmaz xatirələrim bu məkanla bağlıdır...

İndi bu ünvan, xarabazarlığı xatırladan bu şəhərin qalıqları, dağılmış divarlar yaddaşımda gənclik illərimin ən əziz xatirələrini yaşadır...

Artıq Füzuli şəhəri ilk sakinlərini qoynuna alıb, şəhər saatbasaat, günbəgün dirçəlir, yeni evlər, yeni yaşayış məntəqələri salınır, infrastuktur qurulur, kəndlər tikilir, şəhər yeni növrağına qovuşur.

Üzərinə bayraq sancılan bina 30 illik həsrəti özündə yaşadan xatirə ünvanı kimi bu şəhərin sakinlərinə keçmişin bir parçası təsiri bağışlayır...

***Süleyman QARADAĞLI***

**Hava**

# Bu gün yağmursuz və dumanlı olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 18-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Mülayim şimal küləyi əsəcək. Gecə 3-5°, gündüz 6-9° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Lakin gecə bəzi qərb rayonlarında arabir yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.Havanın



temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2-7° isti olacaq. Gecə və səhər dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

***Q. QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Ramil Usubov “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov Əməkdar jurnalist Əminə Yusifqızıya həyat yoldaşı

**NAZİM ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3229
SİFARİŞ 102
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00